# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

## № 1 (23)

Naxçıvan – 2017

*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*

*Heydər Əliyev*



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

*Rəsmi sayt:* *www.alimehkeme.nakhchivan.az*
*www.supremecourt.nakhchivan.az*


**Buraxılış üçün məsul şəxs:**
*R.R.Süleymanov*

**Redaksiya heyəti :**
*Ə.K.Allahverdiyev*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*M.Ə.Əliyev*
*Y.F.Xəlilov*
*G.Ə.Qurbanova*

**Məsul katib:**
*Ə.Z.Əliyev*



**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-71*
*Faks: 544-70-82*


## M Ü N D Ə R İ C A T

### Yeni sənədlər, normativ aktlar


*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu* ......................... **7**

*“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ........................................................... **8**

*“Məhkəmələr və hakimlər haqqında”Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*.............................................................. **9**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 377-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ..........................................................**11**

*“Məhkəmələr və hakimlər haqqında”Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*........................................................... **12**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 438-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ..........................................................**13**

*“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.................. ..............................................***14**

*“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 437-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .............................................* **14**

*“Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu...............................................* **15**

*“Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 440-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı...........................***16**

*“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu.................................................................* **17**

*“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı...........................***18**

*“İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu..................................................................***19**

*“İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 497-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı...........................***21**

*Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı...........................................................................................***22**

*"İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 7 yanvar tarixli 7 – V QN nömrəli Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı* ........................................ **27**

## Məhkəmə fəaliyyəti

**Mülki kollegiyadan**

*Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2016-cı ilin yekunları üzrə statistik məlumatların təhlili* ..................................... **28**

**İnzibati-iqtisadi kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin yekunları üzrə statistik məlumatların təhlili* ..................................... **34**

**Cinayət kollegiyasından**

*Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin yekunları üzrə statistik məlumatların təhlili* .......................................**36**

**Hərbi kollegiyadan**

*Hərbi kollegiyanın 2016-cı ilin yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar* ..................................... **43**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı* .......................................................................... **44**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Azərbaycan Respublikasında inzbati məhkəmə icraatı: nəzəri və təcrübi problemlər*.......................................................................... **55**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2016-cı ildə baxdığı bir sıra işlər haqqında* ........... **61**

## Azad tribuna

*"Aliment ödənilməsi barədə saziş"in sosial-hüquqi mahiyyəti, ailə qanunvericiliyində yeri və təcrübi əhəmiyyəti* .............................**77**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2017-ci ilin yanvar-mart aylarında keçirilən tədbirlərin xülasəsi*......**84**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin “Yeni sənədlər, normativ aktlar” sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 190-a yaxın qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, həmçinin əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836; Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 293-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 4.4-cü, 138.5-ci və 272.4-1-ci maddələr əlavə edilsin:

"4.4. İqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəməyə yazılı formada və ya "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş elektron sənəd formasında verilə bilər.

138.5. İqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bildirişləri bu şəxslərin həmin sistemdə yaradılmış elektron kabinetlərində yerləşdirilir və onlara bu barədə məlumat elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) çatdırılır.

272.4-1. İqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.".

Maddə 2. Bu Qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 sentyabr 2016-cı il.

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanununun 2017-ci il yanvarın 1-dən tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 7 noyabr 2016-cı il.

§

# "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004) aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci maddənin ikinci hissəsinin birinci cümləsindən "dərc edilir və" sözləri çıxarılsın, "daşıyıcılarda" sözü "qaydada" sözü ilə əvəz edilsin, ikinci cümləsində isə "dərc edilməlidir" sözləri "yayılmalıdır" sözü ilə əvəz edilsin.

2. 26-cı maddədə "təşkili, olduğu yer və ərazi yurisdiksiyası" sözləri "təşkili və olduğu yer" sözləri ilə əvəz edilsin və "uyğun olaraq" sözlərindən sonra "müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən" sözləri əlavə edilsin.

3. 32-ci maddə üzrə:

3.1. ikinci hissədə "təşkili, olduğu yer və ərazi yurisdiksiyası" sözləri "təşkili və olduğu yer" sözləri ilə əvəz edilsin və "uyğun olaraq" sözlərindən sonra "müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir və onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.".

4. 43-cü maddə üzrə:

4.1. ikinci hissədə “təşkili, olduğu yer və ərazi yurisdiksiyası” sözləri “təşkili və olduğu yer” sözləri ilə əvəz edilsin və “uyğun olaraq” sözlərindən sonra “müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən” sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Naxçıvan Muxtar Respublikasının İnzibati-iqtisadi Məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir və onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.”.

5. 61-ci maddənin ikinci hissəsində “təşkili, olduğu yer və ərazi yurisdiksiyası” sözləri “təşkili və olduğu yer” sözləri ilə əvəz edilsin və “uyğun olaraq” sözlərindən sonra “müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən” sözləri əlavə edilsin.

6. 90-cı maddənin altıncı hissəsinə “Birinci instansiya” sözlərindən sonra “ və apellyasiya” sözləri əlavə edilsin.

7. 93-cü maddənin ikinci hissəsində “hakimin adı ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə görə vəzifədən” sözləri “barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş, hakim vəzifəsindən intizam qaydasında” sözləri ilə əvəz edilsin.

8. 93-3-cü maddəyə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

“Bu Qanunun 96-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış şəxslər 5 il müddətində hakim vəzifəsinə namizədlərin seçilməsi üçün imtahanda iştirak edə bilməzlər.”.

9. Aşağıdakı məzmunda 112-1-ci maddə əlavə edilsin:

“Maddə 112-1. İntizam məsuliyyəti məsələsinə baxılan hakimin öz arzusu ilə vəzifəsindən çıxmaq barədə yazılı ərizəsinə baxılması

Barəsində intizam icraatı başlanılmış (bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş icraat istisna olmaqla) hakim tutduğu vəzifədən çıxmaq barədə ərizə verdikdə, hakim barəsindəki intizam icraatına və onun səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edilir.

İntizam icraatı bu Qanunun 113-cü maddəsinin 10-cu və 11-ci bəndlərində nəzərdə tutulmuş əsaslara görə başlanılmışdırsa, hakimin tutduğu vəzifədən çıxmaq barədə ərizəsinə icraatının materialları ilə eyni vaxtda baxılır və qərar qəbul edilir.

Hakimin intizam icraatının başlanılmasına əsas olmuş hərəkətlərində cinayət əməlinin əlamətləri olduğu hallarda onun ərizəsi nəzərə alınmaqla

səlahiyyətlərinə xitam verilir və toplanılmış sənədlər Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilir.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 28 oktyabr 2016-cı il.

§

### “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 377-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 377-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanu-

nunda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 noyabr 2016-cı il.

§

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004) 101-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində "on gün" sözləri "72 saat" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 29 noyabr 2016-cı il.

§

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 438-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 438-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 16 dekabr 2016-cı il.

§

## “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287) 1-ci maddəsində “və hakimlərin” sözləri “, hakimlərin və məhkəmə sisteminin” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 29 noyabr 2016-cı il.

§

## “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 437-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 437-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 16 dekabr 2016-cı il.

§

## "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq qərara alır:

"Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 575; 2008, № 7, maddə 602) 2-ci maddəsində "yaşyarımadək uşaqlarını qanunvericiliklə müəyyən edilmiş səbəblərdən təkbaşına böyüdən atalara" sözləri "3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlərə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 29 noyabr 2016-cı il.

§

**"Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 440-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 440-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 25 yanvar 2017-ci il.

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016; Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 335-VQD nömrəli və 16 dekabr tarixli 455-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 231.3-cü maddənin birinci cümləsində "İcra üzrə icraatın dayandırılması" sözləri "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsi ilə müəyyən edilmiş əsaslara uyğun olaraq icra sənədi üzrə icraatın məhkəmələr tərəfindən dayandırılmalı olduğu hallarda icra üzrə icraatın dayandırılması (bundan sonra - icra üzrə icraatın dayandırılması)" sözləri ilə əvəz edilsin.

2. 234-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 234. Qətnamənin icra edilməsi

234.1. Bu Məcəllənin 234.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir.

234.2. Aşağıdakı qətnamələr dərhal icra olunur:

234.2.1. şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında;

234.2.2. məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında.".

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 dekabr 2016-cı il.

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 3 fevral 2017-ci il.

§

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494, 2015, № 12, maddə 1434; Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 458-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.2.1-ci maddədə "başa çatdığı vaxtdan" sözlərindən sonra ", məhkəmə qərarı dərhal icra edilməli olduqda - onun qəbul edildiyi günün ertəsi günündən" sözləri əlavə edilsin.

2. 19.2-ci maddədə "müvafiq məhkəmə" sözləri "bu Qanunun 21.1-ci və 21.2 ci maddələrinə uyğun olaraq icraatı dayandırmış müvafiq icra məmuru və ya məhkəmə, yaxud icra xidmətinin rəhbəri" sözləri ilə əvəz edilsin.

3. 19.3-cü, 22-ci və 23.6-cı maddələr ləğv edilsin.

4. 20-ci maddə üzrə:

4.1. adında "əsasları" sözündən sonra "və qaydası" sözləri əlavə edilsin;

4.2. aşağıdakı redaksiyada 20.2-20.8-ci maddələr əlavə edilsin:

"20.2. İcra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmuru tərəfindən əsaslandırılmış qərar qəbul edilir. Həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və onun surəti 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana göndərilir.

20.3. İcra məmuru icraata xitam verilməsi barədə qərar qəbul etdikdən sonra icraat üzrə hər hansı icra hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.

20.4. İcra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarı daxil olduqdan sonra məhkəmə 10 gün müddətində həmin qərarın bu Qanunun tələblərinin pozulmaqla qəbul edilməsini müəyyən edərsə həmin qərarı ləğv edir.

20.5. Tərəflər və icra sənədini vermiş digər orqan qərarın onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində həmin qərardan müvafiq məhkəməyə şikayət verə bilərlər.

20.6. İcraata xitam verilməsi barədə icra məmurunun qərarı məhkəmə tərəfindən ləğv edildikdə icra tədbirləri davam etdirilir. Bu zaman icra sənədinin icra müddəti icraata başlamaq haqqında qərarın qəbul edildiyi vaxtdan hesablanır.

20.7. İcraata xitam verilməsi barədə icra məmurunun qərarı bu Qanunun 20.4-cü və 20.5-ci maddələrinə müvafiq olaraq ləğv olunmadıqda və ya ondan şikayət verilmədikdə, şikayət verildikdə isə bu şikayətin təmin olunmaması barədə məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra icra sənədi 3 gün müddətində onu vermiş məhkəməyə və ya digər orqana geri qaytarılır.

20.8. İcra sənədi məhkəməyə və ya icra sənədini vermiş digər orqana qaytarıldıqdan sonra icra məmuru təyin etdiyi bütün icra tədbirlərini ləğv edir.”.

5. 21-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 21. İcraatın dayandırılması haqqında məsələyə baxılması

21.1. Bu Qanunun 17-ci maddəsində nəzərdə tutulmuş icraatın dayandırılmasının məcburi olduğu hallarda icra sənədi üzrə icraat icra məmuru tərəfindən dayandırılır.

21.2. Bu Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş icraatın dayandırılmasının mümkün olduğu hallarda icra məmuru tərəfindən icraatın dayandırılması barədə müvafiq məhkəməyə əsaslandırılmış və icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş təqdimat verilir.

21.3. Məhkəmə, icra sənədi üzrə icraatın dayandırılması məsələsinə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231-ci maddəsində nəzərdə tutulmuş qaydada baxır və icra məmurunun təqdimatının təmin olunması və ya onun rədd edilməsi barədə qərardad çıxarır.

21.4. İcraatın dayandırılması haqqında qərardaddan Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş müddətlərdə və qaydada şikayət verilə bilər.

21.5. İcra sənədi üzrə icraat icra məmuru tərəfindən dayandırıldığı hallarda bu barədə qərar qəbul olunur və həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur. Qəbul edilmiş qərarın surəti 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana göndərilir.

21.6. Tərəflər və icra sənədini vermiş digər orqan onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində icraatın dayandırılması barədə icra məmurunun qərarından müvafiq məhkəməyə şikayət verə bilərlər.

21.7. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, ipoteka predmetinə tutmanın yönəldilməsi barədə məhkəmə qərarının icrası üzrə icraatın dayandırılmasına yalnız ipoteka saxlayanın razılığı ilə yol verilir.

21.8. Dayandırılmış icraat üzrə hər hansı icra hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.".

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 dekabr 2016-cı il.

§

**"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 497-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 497-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası

barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 3 fevral 2017-ci il.

§

## Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir.

Cəzaların icrası sahəsində həyata keçirilən islahatlara baxmayaraq, son zamanlar aparılmış təhlillər göstərir ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə edilmir.

İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə qərara alıram:

1. Penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirləri davam etdirilsin. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılsın.

2. Cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələri tətbiq olunsun.

3. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsi və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunması təmin edilsin, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlər görülsün.

4. İctimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısı alınsın, ictimai işlər və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarət təmin edilsin.

5. Azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması imkanları araşdırılsın, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması üçün tədbirlər görülsün.

6. Penitensiar xidmətin yüksək peşəkar kadr korpusunun formalaşdırılması, vəzifələrə təyinatın daha çevik və qısa müddətdə aparılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, habelə onların sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlər görülsün.

7. Penitensiar müəssisələrin etibarlı mühafizəsinin təşkil edilməsi məqsədilə penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsi təmin olunsun.

8. İbtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunsun, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi genişləndirilsin.

9. Cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət edilsin, cinayət təqibi və cəzaların icrası zamanı qeyri-prosessual münasibətlərə yol verilməsin, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı mübarizədə daha ciddi tədbirlər görülsün.

10. Cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, aşağıdakı istiqamətlərdə qanun layihələrini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər:

10.1. cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması;

10.2. cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi;

10.3. törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması;

10.4. azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi;

10.5. həbsə alternativ olan qətimkan tədbirinin tətbiq edilməsi hallarının genişləndirilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi qaydasının sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

11.1. probasiya xidmətinin təşkili ilə əlaqədar təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə normativ hüquqi aktlara dəyişikliklərin edilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birlikdə hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.3. "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sistemini təşkil etsin, həmin sistem vasitəsilə cəzaları icra edən orqan və müəssisələr arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsini təmin etsin, informasiya sisteminə məlumatlar toplanarkən bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatların müəyyən etdiyi meyarları nəzərə alsın;

11.4. ictimai işlər növündə cəza çəkən məhkumların iş yerlərində dəqiq qeydiyyatının təşkil edilməsi, həmin işlərdən yayınmanın qarşısının alınması və işlənmiş vaxtın dəqiq uçotunun aparılması üçün tədbirlər görsün;

11.5. məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.6. azadlıqdan məhrum edilmiş məhkumların və həbs edilmiş şəxslərin saxlanma şəraitinə, yemək, tibbi-sanitariya, maddi-məişət təminatına nəzarəti gücləndirsin;

11.7. bu Sərəncamın 3-6-cı hissələrində nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin və nəticəsi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

12. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki:

12.1. həbs qətimkan tədbirinin seçilməsi barədə vəsatətlərə baxılarkən ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsi mümkünlüyü araşdırılsın;

12.2. böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatlar müstəsna hallarda həbsin tətbiq edilməsinə dair cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş əsaslar mövcud olduqda verilsin.

13. Məhkəmələrə tövsiyə edilsin ki:

13.1. həbs qətimkan tədbiri seçilərkən şəxsin ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və həmin qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğunu araşdırsınlar;

13.2. həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimatlara baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlilləri yoxlasınlar;

13.3. cəzanın növü və həddini müəyyən edərkən cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiq edildiyini əsas tutsunlar;

13.4. cəzanın təyin edilməsi əsaslarına dair Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinə riayət olunmasına xüsusi diqqət yetirsinlər.

14. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, həbs qətimkan tədbirinin seçilməsi və azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi ilə bağlı məhkəmə təcrübəsini mütəmadi ümumiləşdirsin və bu sahədə ədalətli məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin etsin.

15. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təklifləri əsasında penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsini təmin etsin.

16. Yerli icra hakimiyyəti orqanları tərəfindən ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahıları təxirəsalınmadan müəyyən olunsun və həmin siyahıların mütəmadi olaraq icra məmurları ilə razılaşdırılması təmin edilsin.

17. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

17.1. elektron nəzarət vasitələrinin tətbiqi ilə əlaqədar maliyyələşmə məsələlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğunun təklifləri əsasında həll etsin;

17.2. məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanması və təminatına dair Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin müddəalarına riayət olunmasının təmin edilməsi məqsədilə tikinti və təchizat işlərinin yerinə yetirilməsi üçün vəsaitin ayrılması mümkünlüyünə baxsın;

17.3. ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydasını təsdiq etsin;

17.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 10 fevral 2017-ci il.

## “İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında” Naxçıvan Muxtar Respublikasının 2017-ci il 7 yanvar tarixli 7 – V QN nömrəli Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, “İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında” Naxçıvan Muxtar Respublikasının 2017-ci il 7 yanvar tarixli 7-V QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi:

1.1. “İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 2.1-ci maddəsində nəzərdə tutulmuş transplantasiya obyekti olan orqan və ya toxumaların siyahısını təsdiq etsin;

1.2. həmin Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş orqan və ya toxumaların transplantasiyasının qaydaları və şərtlərini, habelə onun həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısını təsdiq etsin;

1.3. həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş orqan və ya toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılması qaydalarını təsdiq etsin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, “İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 2.1-ci, 4.2-ci, 6.2-ci və 7-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

**Vasif Talıbov**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri*

Naxçıvan şəhəri, 7 yanvar 2017-ci il.





## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2016-cı ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2016-cı ildə 1540 mülki işə baxılmaqla nəticə verilmişdir. 2015-ci ildə isə həmin məhkəmələr tərəfindən 1472 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2015-ci illə müqayisədə 2016-cı ildə 4,62% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 85 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı ötən il 85 mülki işdən 79 işə apellyasiya qaydasında baxılaraq 39 qətnamə və 10 qərardad dəyişdirilmədən saxlanılmış, 6 qətnamə dəyişdirilmiş, 22 qətnamə və 2 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 6 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 34 iş
- mənzil mübahisələri – 3 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 15 iş
- torpaq mübahisələri – 6 iş
- xüsusi icraat işləri üzrə – 2 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr – 3 iş
- əmək mübahisələri üzrə - 1 iş

- vərəsəlik hüququ üzrə mübahisələr – 3 iş
- digər mülki işlər – 12 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2016-cı ildə baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2015-ci illə müqayisədə 2016-cı ildə apellyasiya şikayətlərinin sayı 1,16% azalmışdır. Belə ki, 2015-ci ildə birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 86 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2015-ci illə müqayisədə 2016-cı ildə aşağı olmuşdur. Belə ki, 2015-ci ildə rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 1472 qətnamə və qərardadlardan 1,70%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2016-cı ildə məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1540 qətnamə və qərardadlardan 1,95%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2015-ci ildə 98,30%, 2016-cı ildə isə 98,05% təşkil etmişdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, muxtar respublikanın şəhər və rayon məhkəmələrinə 2016-cı ildə daxil olan mülki işlərin 32,99%-ni nikahın ləğvi tələbi ilə əlaqədar olan işlər təşkil etmişdir. Müqavilələrdən əmələ gələn öhdəliklər, vərəsəlik hüququ və mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə işlərin sayı da digər mübahisələrə nisbətən daha çox olmuşdur.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2016-cı ildə apellyasiya qaydasında baxılan qərarların 35,29%-nin ləğv edilməsi və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2015 və 2016-cı illərə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2015-ci ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **31** | **2** | **21** | **2** | **2** | **1** | **3** | | |
| **Babək** | **7** | | **6** | **1** | | | | | |
| **Şərur** | **16** | **3** | **5** | **3** | **4** | | | | **1** |
| **Şahbuz** | **10** | **4** | **3** | | **1** | | **1** | | **1** |
| **Kəngərli** | **3** | | **2** | **1** | | | | | |
| **Sədərək** | **1** | | | | | | | | **1** |
| **Culfa** | **13** | **4** | **6** | | **2** | | | | **1** |
| **Ordubad** | **5** | | **1** | **4** | | | | | |
| **YEKUN** | **86** | **13** | **44** | **11** | **9** | **1** | **4** | | **4** |

2016-cı ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **26** | **3** | **16** | **2** | **1** | | | **1** | **3** |
| **Babək** | **5** | **1** | **3** | | **1** | | | | |
| **Şərur** | **17** | **1** | **10** | | **4** | | | | **2** |
| **Şahbuz** | **7** | | **2** | **1** | **3** | | **1** | | |
| **Kəngərli** | **1** | | | | **1** | | | | |
| **Culfa** | **17** | **1** | **4** | **2** | **4** | **2** | **2** | | **2** |
| **Ordubad** | **11** | | **4** | **1** | **1** | | **2** | **1** | **2** |
| **Sədərək** | **1** | | | | | | | | **1** |
| **YEKUN** | **85** | **6** | **39** | **6** | **15** | **2** | **5** | **2** | **10** |

Apellyasiya qaydasında 2016-cı ildə ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların

ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Culfa Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Sədərək Rayon Məhkəməsi malikdir. Belə ki, 2016-cı ildə Culfa Rayon Məhkəməsində çıxarılan 119 qətnamə və qərardaddan 10 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qətnamə və qərardadların 8,4%-i dəyişdirildiyinə və ya ləğv edildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 91,6% olduğu halda, Sədərək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə Sədərək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 15 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və ya dəyişdirilməmişdir.

Babək Rayon Məhkəməsi tərəfindən 2016-cı ildə çıxarılan 196 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,51%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,49% təşkil etmişdir.

Naxçıvan Şəhər Məhkəməsi tərəfindən 2016-cı ildə çıxarılan 499 qətnamə və qərardaddan 3 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,8%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,2% təşkil etmişdir.

Kəngərli Rayon Məhkəməsi tərəfindən 2016-cı ildə çıxarılan 124 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,81%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,19% təşkil etmişdir.

Şərur Rayon Məhkəməsi tərəfindən 2016-cı ildə çıxarılan 323 qətnamə və qərardaddan 4 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,24%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,76% təşkil etmişdir.

Şahbuz Rayon Məhkəməsi tərəfindən 2016-cı ildə çıxarılan 178 qətnamə və qərardaddan 5 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,81%-i dəyişdirilmiş və ya ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,19% təşkil etmişdir.

Ordubad Rayon Məhkəməsi tərəfindən 2016-cı ildə çıxarılan 86 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 5,81%-i ləğv edilmiş və ya dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 94,19% təşkil etmişdir.

2015-ci ildə isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Sədərək Rayon Məhkəməsi – 100% (26 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);

- Babək Rayon Məhkəməsi – 99,51% (202 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,49%-i dəyişdirilmişdir);
- Kəngərli Rayon Məhkəməsi – 99,17% (120 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,83%-i dəyişdirilmişdir);
- Şahbuz Rayon Məhkəməsi – 98,61% (144 qətnamə və qərardaddan 2 qətnamə, yəni 1,39%-i ləğv edilmişdir);
- Naxçıvan Şəhər Məhkəməsi – 98,28% (465 qətnamə və qərardaddan 8 qətnamə, yəni 1,72%-i dəyişdirilmiş və ya ləğv edilmişdir);
- Şərur Rayon Məhkəməsi – 97,94% (339 qətnamə və qərardaddan 7 qətnamə, yəni 2,06%-i ləğv edilmiş və ya dəyişdirilmişdir).
- Culfa Rayon Məhkəməsi – 97,5% (80 qətnamə və qərardaddan 2 qətnamə, yəni 2,5%-i ləğv edilmişdir);
- Ordubad Rayon Məhkəməsi – 95,83% (96 qətnamə və qərardaddan 4 qətnamə, yəni 4,17%-i dəyişdirilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2015 və 2016-cı illərə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Babək, Culfa, Şahbuz və Ordubad rayon məhkəmələrinin sabitlik göstəricisi 2015-ci illə müqayisədə aşağı düşmüş, Naxçıvan Şəhər Məhkəməsinin, eləcə də Şərur və Kəngərli rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir. Sədərək Rayon Məhkəməsinin sabitlik göstəricisi isə dəyişməmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən asılı olmuşdur.

Muxtar respublika məhkəmələrini mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olur ki, 2015-ci ildə olduğu kimi ötən ildə də ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2015-ci ildə 465 mülki işə, 2016-cı ildə isə 499 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- Şərur Rayon Məhkəməsi – 323 iş (2015-ci ildə 339 işə baxılmışdır);
- Babək Rayon Məhkəməsi – 196 iş (2015-ci ildə 202 işə baxılmışdır);
- Şahbuz Rayon Məhkəməsi – 178 iş (2015-ci ildə 144 işə baxılmışdır);
- Kəngərli Rayon Məhkəməsi – 124 iş (2015-ci ildə 120 işə baxılmışdır);
- Ordubad Rayon Məhkəməsi – 86 iş (2015-ci ildə 96 işə baxılmışdır);
- Culfa Rayon Məhkəməsi – 119 iş (2015-ci ildə 80 işə baxılmışdır);
- Sədərək Rayon Məhkəməsi – 15 iş (2015-ci ildə 26 işə baxılmışdır);

Göründüyü kimi 2015-ci illə müqayisədə 2016-cı ildə Naxçıvan Şəhər Məhkəməsinin, eləcə də Culfa, Şahbuz və Kəngərli rayon məhkəmələrinin iş

yükü artmış, Şərur, Babək, Ordubad və Sədərək rayon məhkəmələrinin iş yükü isə azalmışdır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 22 kassasiya şikayəti verilmiş, həmin şikayətlərdən 15 işə mahiyyəti üzrə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 11 qətnamə və 4 qərardadı dəyişdirilmədən saxlanılmış, 7 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2016-cı ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

***İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN***

## Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin yekunları üzrə statistik məlumatların təhlili

2016-cı ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına ümumilikdə inzibati və iqtisadi mübahisələrlə bağlı 180 iş daxil olmuş, onlardan 14 iş 2015-ci ildən cari ilə qalıq qalmış, 166 iş isə 2016-cı ildə daxil olmuşdur. Daxil olmuş işlərdən 58 iş iqtisadi mübahisələr üzrə, 122 iş isə inzibati mübahisələrə dair işlər olmuşdur.

İqtisadi mübahisələr üzrə işlərdən 49 işə mahiyyəti üzrə baxılmaqla 37 iş üzrə iddia təmin, 2 iş üzrə iddia rədd edilmiş, 4 işin icraatına xitam verilmiş, 6 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 8 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 1 mülki iş 2017-ci ilə qalıq qalmışdır.

İnzibati mübahisələrə dair işlərdən 59 işə mahiyyəti üzrə baxılmaqla 21 iş üzrə iddia təmin, 10 iş üzrə iddia rədd edilmiş, 28 işin icraatına xitam verilmişdir. 47 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 16 iş isə 2017-ci ilə qalıq qalmışdır.

2015-ci illə müqayisədə 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı daxil olan işlərin sayı 21,62% artmışdır. Belə ki, 2015-ci ildə İnzibati-İqtisadi Məhkəmənin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı 148 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinə 2016-cı ildə daxil olan işlərin böyük əksəriyyətini məcburetmə və hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında olan inzibati və iqtisadi mübahisələr haqqında iddialara dair (121 iş, yəni 67,22%) işlər təşkil etmişdir.

2016-cı ildə inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 16 apellyasiya şikayətinə baxılmışdır. Kollegiyada həmin şikayətlərə baxılaraq 5 qərar ləğv edilmiş, 6 qərar və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 1 iş üzrə apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 14 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2015-ci illə müqayisədə 2016-cı ildə kollegiyada baxılan inzibati mübahisələrə dair işlərin sayı artmışdır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin iqtisadi mübahisələr üzrə mülki işlərlə bağlı çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 3 apellyasiya şikayətinə

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qətnamə ləğv edilmiş, 1 iş üzrə apellyasiya şikayətinin icraatına xitam verilmişdir. 2015-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında iqtisadi mübahisələrlə bağlı 2 işə baxılmışdır. Göründüyü kimi 2015-ci illə müqayisədə 2016-cı ildə kollegiyada baxılan iqtisadi mübahisələr üzrə mülki işlərin sayı artmışdır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılan inzibati mübahisələrə dair işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına 6 kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qərar üzrə kassasiya şikayəti mümkün sayılmamış və onun icraata qəbulundan imtina edilmiş, 2 qərar dəyişdirilmədən saxlanılmış, 3 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılan iqtisadi mübahisələr üzrə mülki işlərdən 1 qərardaddan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına kassasiya şikayəti verilmiş və həmin qərardad dəyişdirilmədən saxlanılmışdır.

Beləliklə, 2016-cı ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

***CİNAYƏT KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2016-cı ildə 37 nəfərin barəsində 33 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə həmin məhkəmələr tərəfindən 19 nəfərin barəsində 19 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2016-cı ildə baxılmış 31 cinayət işi üzrə 35 nəfərin barəsində ittiham hökmləri çıxarılmış, 1 cinayət işi üzrə 1 nəfər barəsində tibbi xarakterli məcburiyyət tədbiri tətbiq edilmiş, 1 nəfərin barəsində 1 cinayət işi üzrə icraata isə xitam verilmişdir.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qrupləşdırdıqda 2015 və 2016-cı illərə dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| Cinayətlərin növü | 2015-ci il üzrə göstəricilər (şəxslərin və işlərin sayı) | 2016-cı il üzrə göstəricilər (şəxslərin və işlərin sayı) |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | 5 / 5 | 7 / 5 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 2 / 2 | 6 / 6 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | 1 / 1 | - |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 4 / 4 | 4 / 4 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 4 / 4 | 10 / 8 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | - | 6 / 6 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | 2 / 2 | 2 / 2 |

Cədvəldən göründüyü kimi 2015-ci ildən fərqli olaraq 2016-cı ildə həyat və sağlamlıq əleyhinə olan, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan və iqtisadi fəaliyyət sahəsində olan

cinayətlərin sayı artmış, idarəetmə qaydası əleyhinə olan və mülkiyyət əleyhinə olan cinayətlərə dair göstəricilər dəyişməmişdir. 2015-ci ildən fərqli olaraq 2016-cı ildə məhkəmələrin icraatına şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərə dair işlər daxil olmamış, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərə dair işlər isə daxil olmuşdur.

2015 və 2016-cı illərdə məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| Təyin olunan əsas cəzaların növləri | 2015-ci il üzrə məhkumların sayı | 2016-cı il üzrə məhkumların sayı |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 14 nəfər | 32 nəfər |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 3 nəfər | 3 nəfər |
| Cərimə | 1 nəfər | - |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2015-ci ildə məhkum edilmiş şəxslərin 77,78%-ni, 2016-cı ildə isə məhkum olunanların 91,43 %-ni təşkil etmiş, yəni 2015-ci illə müqayisədə 2016-cı ildə cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 13,65% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzanın həcmi isə əksinə 13,65% azalmışdır (ümumilikdə götürüldükdə).

2015 və 2016-cı illərdə baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| Məhkəmənin adı | 2015-ci il üzrə (məhkumun və cinayət işinin sayı) | 2016-cı il üzrə (məhkumun və cinayət işinin sayı) |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 4 nəfər / 4 iş | 13 nəfər / 12 iş |
| Naxçıvan Şəhər Məhkəməsi | 6 / 6 | 5 / 5 |
| Culfa Rayon Məhkəməsi | 4 / 4 | 8 / 7 |
| Şərur Rayon Məhkəməsi | 2 / 2 | 2 / 2 |
| Babək Rayon Məhkəməsi | 1 / 1 | 2 / 2 |

| | | |
|---|---|---|
| Kəngərli Rayon Məhkəməsi | - | 1 / 1 |
| Ordubad Rayon Məhkəməsi | 2 / 2 | 3 / 1 |
| Sədərək Rayon Məhkəməsi | - | 3 / 3 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2015-ci ildən fərqli olaraq 2016-cı ildə Naxçıvan Şəhər Məhkəməsi və Ordubad Rayon Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Babək və Culfa rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı artmış, Şərur Rayon Məhkəməsinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər isə dəyişməmişdir. Ötən ildən fərqli olaraq 2016-cı ildə Kəngərli və Sədərək rayon məhkəmələrinin icraatına cinayət işləri daxil olmuşdur. Şahbuz Rayon Məhkəməsinin icraatına isə 2015-ci ildə olduğu kimi cinayət işi daxil olmamışdır.

2016-cı ildə birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 7 hökm dəyişdirilmədən saxlanılmış, 2 hökm isə dəyişdirilmişdir.

Dəyişdirilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2016-cı ildə çıxardıqları bütün hökmlərin 6,45%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 93,55% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə 2 hökm, yəni birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin 10,53%-i dəyişdirilmiş, beləliklə, hökmlərin sabitlik göstəricisi həmin ildə 89,47% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2016-cı ildə 73 işə (materiala) baxılmışdır. 2015-ci illə müqayisədə bu göstərici 87,18% artmışdır (həmin dövrdə 39 işə baxılmışdır).

2016-cı ildə xüsusi icraat qaydasında həll edilən işlərdən 34 iş (46,57%) həbs qətimkan tədbirinin seçilməsi, 4 iş (5,48%) ev dustaqlığının seçilməsi, 6 iş (8,22%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 9 iş (12,33%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 3 iş (4,11%) xəstəliyə və hökmün icra müddətinin başa çatmasına görə cəza çəkməkdən azad etmə, 6 iş (8,22%) telefon və digər qurğularla ötürülən məlumatların ələ keçirilməsi, 1 iş (1,37%) ekspertiza aparılması üçün tibbi müəssisəyə yerləşdirmə, 2 iş (2,74%) rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması, 1 iş (1,37%) tutulma və həbsdə saxlama ilə əlaqədar, 2 iş (2,74%) amnistiyanın tətbiq edilməməsi və ya düzgün tətbiq

edilməməsi, 2 iş (2,74%) müalicə müəssisələrində saxlama vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi haqqında, 3 iş (4,11%) digər məsələlər haqqında olmuşdur.

Muxtar respublikanın rayon (şəhər) məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2015 və 2016-cı illərin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2015-ci il üzrə (şəxslərin və işlərin sayı)** | **2016-cı il üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 12 nəfər / 12 iş | 35 nəfər / 35 iş |
| Şərur Rayon Məhkəməsi | 1 / 1 | 14 / 14 |
| Babək Rayon Məhkəməsi | 3 / 3 | 1 / 1 |
| Culfa Rayon Məhkəməsi | 1 / 1 | 3 / 3 |
| Ordubad Rayon Məhkəməsi | 2 / 2 | - |
| Kəngərli Rayon Məhkəməsi | 19 / 19 | 20 / 20 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | 1 / 1 | - |

2016-cı ildə muxtar respublikanın rayon (şəhər) məhkəmələrinin xüsusi icraat qaydasında çıxardıqları qərarlardan 4 apellyasiya şikayəti verilmişdir. Həmin şikayətlərə baxılaraq Naxçıvan Şəhər Məhkəməsinin 2 qərarı dəyişdirilmədən saxlanılmış, Culfa Rayon Məhkəməsinin 1 və Naxçıvan Şəhər Məhkəməsinin 1 qərarı ləğv edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrində 2016-cı ildə 454 nəfərin barəsində 447 inzibati xəta haqqında işə baxılmışdır.

2015-ci illə müqayisədə 2016-cı ildə baxılan inzibati xəta haqqında işlərin sayı 15,18%, inzibati xəta törətmiş şəxslərin sayı isə 15,92% azalmışdır (2015-ci ildə 540 nəfərin barəsində 527 inzibati xəta haqqında işə baxılmışdır).

2016-cı ildə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 84 nəfərə (18,5%) inzibati həbs, 23 nəfərə (5,07%) inzibati cərimə, 5 nəfərə (1,1%) xəbərdarlıq, 1 nəfərə (0,22%) inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 136 nəfərə (29,95%) isə inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 205 (45,15%) nəfərin barəsində 205 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2015 və 2016-cı illərə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| İnzibati xətanın növləri | 2015-ci il üzrə (şəxs və işlərin sayı) | 2016-cı il üzrə (şəxs və işlərin sayı) |
|---|---|---|
| Xırda xuliqanlıq | 27 nəfər / 27 iş | 19 nəfər/ 19 iş |
| Aksiz markası ilə markalanmalı olan məhsulların (malların) belə marka olmadan satılması | 9 nəfər / 9 iş | 4 nəfər / 4 iş |
| Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma | 23 nəfər / 23 iş | - |
| Malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi | - | 1 nəfər / 1 iş |
| Malların saxlanca qoyulması və saxlanc qaydalarının pozulması | - | 1 nəfər / 1 iş |
| Nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi | - | 4 nəfər / 4 iş |
| Nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi | 2 nəfər / 2 iş | 3 nəfər / 3 iş |
| Xırda talama | 1 nəfər / 1 iş | 3 nəfər / 2 iş |
| Döymə | - | 5 nəfər / 5 iş |
| Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama | 19 nəfər / 14 iş | 27 nəfər / 24 iş |
| Qumar oyununda iştirak etmə | 12 nəfər / 8 iş | - |
| Məhkəməyə hörmətsizlik göstərilməsi | 1 nəfər / 1 iş | - |
| Məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməməsi | 53 nəfər / 53 iş | 37 nəfər/ 34 iş |
| Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi | - | 19 nəfər / 19 iş |
| İnzibati cərimə və ictimai işlər növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsi | - | 86 nəfər / 86 iş |
| Digər inzibati xətalar | 144 nəfər / 140 iş | 40 nəfər / 40 iş |

Göründüyü kimi 2015-ci illə müqayisədə 2016-cı ildə rayon (şəhər) məhkəmələri tərəfindən baxılan nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 50%, xırda talama ilə bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 2 dəfə, polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 42,1% artmışdır. 2015-ci ildən fərqli olaraq 2016-cı ildə xırda xuliqanlıqla əlaqədar barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 29,63%, aksiz markası olmayan məhsulların, malların satılması ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 55,55%, məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməməsi ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 30,19%, digər inzibati xətalarla bağlı barəsində tənbeh tədbiri tətbiq olunan şəxslərin sayı isə 72,22% azalmışdır. 2015-ci ildən fərqli olaraq 2016-cı ildə rayon (şəhər) məhkəmələrinin icraatına qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma, məhkəməyə hörmətsizlik göstərilməsi və qumar oyununda iştirak etmə ilə bağlı işlər daxil olmamış, malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, malların saxlanca qoyulması və saxlanc qaydalarının pozulması, nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi, döymə, məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi, inzibati cərimə və ictimai işlər növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsi ilə bağlı olan inzibati xətalara dair işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2015 və 2016-cı illərə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2015-ci il üzrə (şəxs və işlərin sayı)** | **2016-cı il üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 173 nəfər / 173 iş | 118 nəfər / 118 iş |
| Şərur Rayon Məhkəməsi | 103 / 90 | 81 / 74 |
| Babək Rayon Məhkəməsi | 82 / 82 | 99 / 99 |
| Culfa Rayon Məhkəməsi | 44 / 44 | 36 / 36 |
| Ordubad Rayon Məhkəməsi | 38 / 38 | 15 / 15 |
| Kəngərli Rayon Məhkəməsi | 35 / 35 | 37/ 37 |
| Şahbuz Rayon Məhkəməsi | 56 / 56 | 61 / 61 |
| Sədərək Rayon Məhkəməsi | 9 / 9 | 7 / 7 |

2016-cı ildə muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 5 apellyasiya şikayəti verilmişdir.

Həmin şikayətlərə baxılaraq Babək Rayon Məhkəməsinin 1 və Kəngərli Rayon Məhkəməsinin 1 qərarı dəyişdirilmədən qüvvəsində saxlanılmış, Naxçıvan Şəhər Məhkəməsinin 1 və Şahbuz Rayon Məhkəməsinin 1 qərarı dəyişdirilmiş, Ordubad Rayon Məhkəməsinin 1 qərarı isə ləğv edilmişdir.

Muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2016-cı ildə inzibati xətalara dair işlər üzrə çıxarılan qərarların 0,67%-i dəyişdirildiyindən və ya ləğv edildiyindən qərarların sabitlik göstəricisi 99,33% təşkil etmişdir.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 4 kassasiya şikayəti verilmişdir. Kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 1 şikayət geri götürüldüyündən kassasiya şikayətinin baxılmasına xitam verilmiş, 1 qərar dəyişdirilmədən saxlanılmış, 2 qərar hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2016-cı ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈
≈≈≈≈

## ***HƏRBİ KOLLEGİYADAN***

### Hərbi kollegiyanın 2016-cı ilin yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının icraatına 2016-cı ildə 17 nəfərin barəsində 14 cinayət işi üzrə apellyasiya şikayətləri daxil olmuşdur. 2015-ci ildə isə kollegiyanın icraatına 19 nəfərin barəsində 17 cinayət işi üzrə apellyasiya şikayətləri daxil olmuşdur.

Göründüyü kimi 2015-ci illə müqayisədə 2016-cı ildə hərbi kollegiyanın icraatına daxil olan işlərin sayı 17,65% azalmışdır.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsində çıxarılmış ittiham hökmlərindən verilmiş apellyasiya şikayətləri cinayətlərin təsnifatına görə böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlər üzrə işlərdən olmuşdur.

Məhkumların təqsirli bilindikləri konkret əməllərə gəldikdə mübahisələndirilən hökmlərlə üç nəfər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 332.1, bir nəfər 332.2.5, bir nəfər 331.3 və 150.1, bir nəfər 332.3, bir nəfər 228.1, bir nəfər 178.1, bir nəfər 350.1, bir nəfər 332.2.1 və 332.2.3, bir nəfər 179.3.2, 308.2, 309.2 və 302.2, bir nəfər 32.3, 206.3.2, 32.3 və 234.1, bir nəfər 206.3.2, 206.3.3 və 234.1, bir nəfər 206.3.2, 234.1, bir nəfər 32.4, 312.2, 178.2.2 və 178.2.4, bir nəfər 32.5, 29 və 312.2, bir nəfər 333.3 və 328.1-ci maddələri ilə məhkum edilmişlər.

Barəsində apellyasiya qaydasında işə baxılmış məhkumlardan 1 nəfər zabit, 3 nəfər gizir, 5 nəfər çavuş, 7 nəfər əsgər, 1 nəfər isə mülki şəxs olmuşdur.

Apellyasiya şikayətlərinə baxılması zamanı məhkəmə iclasları məhkəmə istintaqı aparılmadan keçirilməklə apellyasiya şikayətlərinə baxılması nəticəsində 5 hökm dəyişdirilmiş, 9 hökm isə dəyişdirilmədən saxlanılmışdır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəmənin hərbi kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına 3 kassasiya şikayəti verilmişdir. Kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasında baxılaraq 1 şikayət geri götürüldüyündən kassasiya şikayətinin baxılmasına xitam verilmiş, 2 qərar dəyişdirilmədən saxlanmışdır.

Beləliklə, 2016-cı ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarların icmalı dərc olunur.

Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

1. Avropa Məhkəməsinin ***"Harakçiyev (Harakchiyev) və Tolumov (Tolumov) Bolqarıstana qarşı"*** (IV Bölmə) (ərizələr № 15018/11 və 61199/12) iş üzrə 08 iyul 2014-cü il tarixli qərarından

Maddə 3

Ləyaqəti alçaldan rəftar

Qeyri-insani rəftar

Ömürlük azadlıqdan məhrumetmə rejiminin sonradan islah olunma vasitəsilə cəzanın yüngülləşdirilməsinə nail olmaq üçün adekvat imkanlar yaratmaması: ***pozuntu baş verib***

*Faktlar* – İki ərizəçidən birincisi sonradan başqa cəza ilə əvəzlənməsi mümkün olmayan, ikincisi isə mümkün olan ömürlük azadlıqdan məhrumetmə cəzası çəkirdilər. Hər iki ərizəçi ömürlük azadlıqdan məhrum edilmiş məhkumlara tətbiq edilən ciddi rejimdə saxlanılırdılar ki, bu da günün əksər hissəsi ərzində daim bağlı kameralarda və digər məhkumlardan təcrid halında saxlanmanı nəzərdə tuturdu. Avropa Məhkəməsinə ərizələrində onlar saxlanma şəraitindən (Konvensiyanın 3-cü maddəsi) və səmərəli hüquqi müdafiə vasitəsinin olmamasından şikayət etdilər.

Bundan əlavə, birinci ərizəçi şikayət etdi ki, başqa cəza ilə əvəzlənməsi mümkün olmayan və onu islah olunma perspektivlərindən məhrum edən ömürlük azadlıqdan məhrumetmə cəzası 3-cü maddəni pozan qeyri-insani və ləyaqəti alçaldan cəzaya bərabərdir. Başqa cəza ilə əvəzlənməsi mümkün olmayan ömürlük azadlıqdan məhrumetmə cəzası Bolqarıstan qanunvericiliyinə ölüm cəzasının ləğv edilməsindən sonra 1998-ci ilin dekabrında daxil edilib. O, başqa cəza ilə əvəzlənə bilən "adi" ömürlük azadlıqdan məhrum-

etmə cəzası ilə yanaşı mövcuddur. 13 oktyabr 2006-cı ildən qüvvəyə minmiş normalara əsasən prezidentin əfvetmə ilə bağlı diskresion səlahiyyəti ömürlük azadlıqdan məhrum edilmiş bütün məhkumlara, o cümlədən cəzasının sonradan dəyişdirilməsi mümkün olmadan ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlərə də şamil olunur. 11 aprel 2012-ci ildə Bolqarıstan Konstitusiya Məhkəməsi qərara aldı ki, əfv səlahiyyəti əsassız olaraq tətbiq edilməməli, konstitusion dəyərləri və prinsipləri həyata keçirmək vəzifəsinə uyğun olmalı və onun tətbiqi zamanı bərabərlik, humanizm, mərhəmət, bağışlama prinsipləri, məhkumun sağlamlıq və ailə vəziyyəti və şəxsiyyətindəki hər hansı müsbət dəyişikliklər nəzərə alınmalıdır. Əfv səlahiyyətinin həyata keçirilməsi ilə bağlı məsləhətlər vermək üçün 2012-ci ildə Əfv komissiyası yaradıldı və onun işini tənzimləyən qaydalar təsbit olundu.

*Hüquqi məsələlər* – Maddə 3

a) Saxlanma şəraiti (hər iki ərizəçi barəsində) – Hər iki ərizəçi həbsxanada saxlanıldıqları bütün müddət ərzində daim bağlı kameralarda və həbsxanadakı qalan məhkumlardan təcrid olunmuş halda qalırdı. Onlar günün 21-22 saatı ərzində kameralarında qalır, digər məhkumlarla, hətta onlarla eyni bölmədə qalanlarla ünsiyyətdə ola bilmirdilər. Ömürlük azadlıqdan məhrum edilmiş məhkumların avtomatik olaraq həbsxanadakı qalan məhkumlardan və bir-birindən ayrı saxlanması, xüsusən kameralardan kənarda müxtəlif fəaliyyətlər və ya kameralarda stimullaşdırıcı fəaliyyətlər olmadığı halda, özlüyündə Konvensiyanın 3-cü maddəsi üzrə məsələni meydana çıxara bilərdi. Ərizəçilərdən hər hansı birinin belə ciddi tədbirlər görülməsini tələb edən dərəcədə təhlükəli məhkum hesab edildiklərini göstərən heç bir sübut yox idi. Əslində ərizəçilərin təcrid halında saxlanması, belə görünür ki, onların davranışının hər hansı təhlükəsizlik problemləri yaratmasının nəticəsi deyil, əsas etibarı ilə həbsxana rejimini tənzimləyən daxili qanunvericilik normalarının avtomatik tətbiqinin nəticəsi idi. Açıq havada hərəkət etmələrinin və mənalı fəaliyyətlərlə məşğul olmalarının məhdudlaşdırılması ilə yanaşı, ərizəçilərin tualetdən istifadə etmək üçün kameralarını tərk etmələrinə yalnız gündə üç dəfə icazə verildiyinə görə onlar qalan vaxtlarda vedrələrdən istifadə etməli olurdular.

Beləliklə, saxlanma şəraitinin və uzun müddət həbsxanada qalmanın (müvafiq olaraq 12 və 14 il ərzində) məcmu təsirləri nəticəsində ərizəçilərin məruz qaldıqları iztirablar və çətinliklər həbsdə saxlanmanın qaçılmaz olaraq doğurduğu iztirabın səviyyəsini aşmış və 3-cü maddənin pozulması üçün tələb olunan minimal qəddarlıq səviyyəsini keçmişdi. Bu hal qeyri-insani və ləyaqəti alçaldan rəftar təşkil edirdi.

Nəticə: **pozuntu baş verib** (yekdilliklə).

b) Başqa cəza ilə əvəzlənməsi mümkün olmayan ömürlük azadlıqdan məhrumetmə (birinci ərizəçi barəsində) – Məhkəmə bir daha xatırlatdı ki, başqa cəza ilə əvəzlənməsi mümkün olmayan ömürlük azadlıqdan məhrumetmə cəzası 3-cü maddə üzrə məsələni meydana çıxara bilər. Sadəcə olaraq təcrübədə ömürlük azadlıqdan məhrumetmə cəzasının bütünlüklə icra edilməsinin mümkünlüyü faktı onu "əvəzlənməsi mümkün olmayan" cəzaya çevirmirdi: həmin cəzanın de yure və de fakto "əvəzlənməsinin mümkün olması" 3-cü maddənin məqsədləri üçün kifayət idi (*"Kafkaris Yunanıstana qarşı"* iş, ərizə № 21906/04, 12 fevral 2008-ci il.)

Ömürlük azadlıqdan məhrumetmə cəzası yalnız o halda Konvensiyanın 3-cü maddəsinə uyğun ola bilərdi ki, azadlığa buraxılma və ittiham hökmünə yenidən baxılması imkanı mövcud olsun. Belə ki, məhkum onun azadlıqdan məhrum edilməsi üçün qanuni cəzalandırma əsasları mövcud olmadıqda həbsdə saxlanıla bilməzdi və belə hallara onun islah olunması da daxil idi. Ömürlük azadlıqdan məhrum edilmiş məhkum azadlığa buraxılmaq üçün nə etməli olduğunu və hansı şərtlərlə azad ediləcəyini, o cümlədən cəzasına nə zaman yenidən baxılacağını və ya bunun üçün nə zaman müraciət edə biləcəyini cəza müddətinin lap başlanğıcından bilmək hüququna malik idi (*"Vinter və başqaları Birləşmiş Krallığa qarşı"* iş, ərizələr № 66069/09, 130/10 və 3896/10, 9 iyul 2013-cü il).

Birinci ərizəçinin cəzasının de yure dəyişdirilməsinin mümkünlüyünə 2006-cı ildə qanunvericiliyə dəyişiklik edildikdən sonra aydınlıq gətirilsə də, həmin tarixə qədərki mövqe o qədər də aydın deyildi. Lakin cəzanın de yure dəyişdirilməsinin mümkünlüyü məsələsindən asılı olmayaraq, Məhkəmə əmin deyildi ki, araşdırılan dövrdə cəzanın de fakto dəyişdirilməsi mümkün idi, yaxud birinci ərizəçi onun azad edilməsinə və ya cəzasının dəyişdirilməsinə imkan yaradan mexanizmin mövcudluğundan xəbərdar idi.

Birinci ərizəçi barəsindəki hökmün qüvvəyə mindiyi 2004-cü ilin noyabrından 2012-ci ilin əvvəllərinədək prezidentin əfv səlahiyyətini həyata keçirməsi qaydası kifayət qədər qeyri-şəffaf idi, əfv siyasəti ictimaiyyətə açıqlanmırdı və ayrı-ayrı əfv qərarlarının əsaslandığı səbəblər göstərilmirdi. Proses rəsmi, hətta qeyri-rəsmi təminatlardan məhrum idi və cəzasının sonradan dəyişdirilməsi mümkün olmadan ömürlük (həmişəlik) azadlıqdan məhrumetmə cəzası çəkən şəxsin həmin dövrdə cəzasının dəyişdirilməsinə nail ola biləcəyini göstərən heç bir konkret nümunə yox idi.

Yeni prezidentin qərarları, Əfv komissiyasının təcrübəsi və Konstitusiya Məhkəməsinin 11 aprel 2012-ci il tarixli qərarı nəticəsində 2012-ci ildə

islahatlar həyata keçiriləndən bəri prezidentin əfv səlahiyyətini həyata keçirməsi qaydasına xeyli dərəcədə aydınlıq gətirildi. Belə ki, indi birinci ərizəçi onun azad edilməsinə və ya cəzasının dəyişdirilməsinə imkan yaradan mexanizmin mövcudluğundan xəbərdar olan məhkum sayıla bilərdi.

Lakin Məhkəmə bu məsələni də nəzərdən keçirməli idi ki, birinci ərizəçinin islah olunmasına həqiqətən imkan yaradılmışdımı? Baxmayaraq ki, Konvensiya özlüyündə bəraət hüququnu təmin etmir və 3-cü maddə dövlət orqanlarının üzərinə məhkumları islah və cəmiyyətə yenidən inteqrasiya olunma proqramları və fəaliyyətləri ilə təmin etmək kimi mütləq vəzifə qoyan maddə kimi şərh oluna bilməzdi, həmin maddə dövlət orqanlarının ömürlük azadlıqdan məhrum edilmiş məhkumlara bir gün yenidən azadlıqlarına qovuşma imkanı (bu imkan nə qədər az olsa belə) verməsini tələb edirdi. Bu şansın həqiqi və real olması üçün dövlət orqanları ömürlük azadlıqdan məhrum edilmiş məhkumlara islah olunma imkanı da verməli idilər. İştirakçı dövlətlər bu sahədə geniş qiymətləndirmə sərbəstliyinə malik olsalar da, ömürlük azadlıqdan məhrum edilmiş məhkumların saxlanma rejimi və şəraiti az əhəmiyyətli məsələ sayıla bilməzdi. Birinci ərizəçi xüsusilə ciddi rejimdə, demək olar ki, tam təcrid halında saxlanılırdı və sosial təmas imkanları olduqca məhdud idi. Bu acınacaqlı rejimin zərərli təsirləri, onun saxlanıldığı qeyri-qənaətbəxş maddi şəraitlə birlikdə götürülməklə, onun islah olunma ehtimalını və beləliklə, bir gün islah yolunda irəliləyişə nail ola və bunu nümayiş etdirə biləcəyinə və cəzasının azaldılmasına nail olacağına bəslədiyi real ümidi, yəqin ki, ciddi şəkildə zəiflətmişdi. Onu da əlavə etmək lazımdır ki, onun islah yolunda irəliləyişə nail olmasının ardıcıl dövrülüklə qiymətləndirilməsi aparılmırdı. Müvafiq olaraq 2012-ci il islahatlarından sonrakı dövrdə onun ömürlük azadlıqdan məhrumetmə cəzası de fakto dəyişdirilməsi mümkün olan cəza sayıla bilməzdi.

Nəticə: **pozuntu baş verib** (yekdilliklə).

Məhkəmə həmçinin ərizəçilərin saxlanma şəraitindən şikayət edə bilmələri üçün Bolqarıstan qanunvericiliyində səmərəli daxili hüquqi müdafiə vasitəsinin olmaması ilə əlaqədar olaraq 13-cü maddənin **pozulduğunu** müəyyən etdi (yekdilliklə).

Maddə 46: Bu qərarı lazımi qaydada icra etmək üçün Bolqarıstan şərti azad edilmə imkanı olmaqla və ya olmadan ömürlük azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən həbsxana rejimlərini tənzimləyən hüquqi bazada islahat aparmalı (bu islahatın qanunvericilik aktlarında aparılması daha yaxşı olar), xüsusən ömürlük azadlıqdan məhrum edilmiş məhkumların

hamısına yüksək dərəcədə məhdudlaşdırıcı həbsxana rejiminin avtomatik tətbiqini və onların təcrid halında saxlanmasını aradan qaldırmalıdır.

Maddə 41: Saxlanma şəraitinin doğurduğu mənəvi ziyana görə birinci ərizəçiyə 4.000 avro, ikinci ərizəçiyə isə 3.000 avro təyin edildi; qərara alındı ki, barəsindəki ömürlük azadlıqdan məhrumetmə cəzasının müddətinin azaldılmasına birinci ərizəçinin nail ola bilməməsi məsələsində pozuntunun baş verdiyinin müəyyən edilməsi özlüyündə onun bu baxımdan məruz qaldığı hər hansı mənəvi ziyana görə yetərincə ədalətli kompensasiya təşkil edir.

≈≈≈

2. Avropa Məhkəməsinin ***"Svinarenko və Slyadnev Rusiyaya qarşı"*** (Böyük Palata) (*Ərizələr №* 32541/08 və 43441/08) iş üzrə 17 iyul 2014-cü il tarixli qərarından

Maddə 3

Alçaldıcı rəftar

Təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə baxışı zamanı saxlanılmaları üçün metal qəfəsdən istifadə olunması: ***pozuntu baş verib***

*Faktlar* – Hər iki ərizəçi soyğunçuluq da daxil olmaqla bir sıra cinayət əməlləri törətməkdə ittiham edilmişlər. Məhkəmə prosesi çərçivəsində keçirilmiş iclaslarda onlar ölçüləri təxminən 1,5-in 2,5 metrə olan və dörd tərəfdən metal millərlə əhatə olunan və metal tavanı olan qəfəsə salınmışlar.

Məhkəmənin Palatası 2012-ci il 11 dekabrda qəbul etdiyi qərarında yekdilliklə onların qəfəsə salınmasının Konvensiyanın 3-cü maddəsinin tələblərinə zidd şəkildə alçaldıcı rəftar olduğunu təsbit etmişdir.

*Hüquqi məsələlər* – Maddə 3: Hökumət bildirmişdir ki, ərizəçilərin ittiham olunduqları cinayətlərin zorakı xarakter daşıdığı, əvvəllər cinayət törətdikləri və zərərçəkmişlərin, eləcədə şahidlərin ərizəçilərdən qorxması nəzərə alınmaqla məhkəmə baxışının keçirilməsi üçün lazımi şəraitin yaradılması qəfəsdən istifadə edilməsinə haqq qazandırmışdır.

Məhkəmə bildirmişdir ki, ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi üçün məhkəmə iclas otağında qanun-qayda və təhlükəsizliyin təmin edilməsi böyük əhəmiyyət kəsb etsə də, bu qayda-qanunu və təhlükəsizliyi təmin etmək üçün seçilən vasitələr ağırlıq dərəcəsinə və ya xarakterinə görə işgəncəni və qeyri-insani və ya alçaldıcı rəftarı, yaxud cəzanı mütləq formada qadağan edən 3-cü maddə ilə bağlı məsələlərin ortaya çıxmasına səbəb olacaq hərəkəti məhdudlaşdırma tədbirlərini ehtiva etməməlidir.

Ərizəçilərin işlərinə açıq məhkəmə iclasında andlılar tərəfindən baxılırdı. İclaslarda təxminən 70 şahid də iştirak etmişdir. Belə bir şəraitdə ərizəçilə-

rin ictimaiyyətin qarşısında qəfəsdə olması onların şəxsiyyətinə xələl gətirmiş olurdu və onlarda alçalma, köməksizlik, qorxu, əzab və aşağılanma hisləri yaradırdı. Onlar bu rəftara bir ildən artıq davam edən, demək olar ki, hər ay bir neçə iclası keçirilən bütün məhkəmə prosesi dövründə məruz qalmışlar. Ərizəçilərin işlərinə baxılan zaman iclas zalında qəfəsdə görünmələrinin hakimlərdə onların təhlükəli olmaları barədə təəssürat yaratmaqla təqsirsizlik prezumpsiyasını pozmasından qorxmaları üçün obyektiv əsas olmuşdur. Məhkəmə təqsirləndirilən şəxsin məhkəmə baxışı zamanı qəfəsdə saxlanılmasının onun hərəkətlərinin fiziki cəhətdən məhdudlaşdırılması, qaçmasının qarşısının alınması, ictimai qaydanı pozan hərəkətlərinə və aqressiv davranışına yol verilməməsi, yaxud da onun kənardan edilə biləcək aqressiv hərəkətlərdən qorunması üçün zəruri vasitə olduğunu təsdiq edən hər hansı inandırıcı dəlil təqdim etməmişdir. Buna görə də bu təcrübənin davam etdirilməsi qəfəsə salınmış şəxsin alçaldılması vasitəsi kimi qəbul edilməlidir. Beləliklə, ərizəçilər məhkəmə baxışı zamanı məhkəmə iclas otağında mənəvi sarsıntıya məruz qalmışlar və bu sarsıntı məhkəmə zalında saxlanma zamanı mövcud ola biləcək qaçılmaz əzab səviyyəsindən artıqdır və sözügedən rəftar 3-cü maddənin tətbiq oluna bilməsi üçün zəruri olan minimal ağırlıq səviyyəsinə çatmışdır.

Son zamanlar Palata tərəfindən qəbul edilmiş bir sıra qərarlarda təhlükəsizlik mülahizələri ilə əsaslandırılmadan qəfəsdən istifadə olunması halında 3-cü maddənin pozuntusu təsbit edilmişdir. Lakin Böyük Palata bu kontekstdə qəfəslərdən istifadə olunmasına 3-cü maddə əsasında hər hansı bir formada haqq qazandırıla biləcəyini hesab etmir. Hər bir halda hətta bunun mümkünlüyü güman edilsə belə, Hökumətin ərizəçilərin təhlükəsizlik üçün hədə yaratdıqları barədə iddiası sübuta yetirilməmişdir.

Məhkəmə təkrar etmişdir ki, Konvensiyanın mahiyyəti məhz insan ləyaqətinə hörmətin təmin edilməsindən ibarətdir və insanların fərd kimi qorunması vasitəsi qismində çıxış edən Konvensiyanın obyekti və məqsədi onun müddəalarının Konvensiyada təsbit edilmiş təminatların praktiki və səmərəli olmasını təmin edəcək şəkildə təfsir və tətbiq edilməsini tələb edir. Məhkəmə prosesi zamanı şəxsin metal qəfəsdə saxlanılması öz-özlüyündə əsl alçaldıcı xarakterə malikdir. Buna görə də ərizəçilərin məhkəmə iclas otağında metal qəfəsə salınması 3-cü maddə ilə qadağan edilən alçaldıcı rəftara bərabərdir.

Nəticə: **pozuntu baş vermişdir** *(yekdilliklə).*

Məhkəmə həmçinin yekdilliklə cinayət prosesinin müddəti ilə bağlı **6-cı maddənin 1-ci bəndinin pozulduğunu** qət etmişdir.

Maddə 41: Mənəvi ziyanla bağlı 10 000 avro

≈≈≈

3. Avropa Məhkəməsinin ***"Ahmet Yıldırım Türkiyəyə qarşı"*** ( II Seksiya) (*Ərizə №* 3111/10*)* iş üzrə 18 dekabr 2014-cü il tarixli qərarından

Maddə 10, Maddə 10-1 : İfadə azadlığı

Bir internet səhifəsinin preventiv məhkəmə tədbiri olaraq bağlanması və bunun nəticəsində bir internet domeninə və onda yerləşən bütün səhifələrə girişin bütünlüklə bağlanması: ***pozuntu baş verib***

*Faktlar* – Ərizəçi digər yazıları ilə yanaşı elmi yazılarını da yerləşdirdiyi bir veb səhifəsinin sahibi və istifadəçisidir. Bu səhifə web Google Sites səhifələrinin yaradılma və yerləşdirilmə modulu istifadə olunaraq yaradılmışdır. 23 iyun 2009-cu il tarixdə cinayət məhkəməsi internet üzərindəki nəşrlərin tənzimlənməsi və internetdə törədilən cinayətlərlə mübarizə haqqında qanuna əsaslanaraq bu səhifələrin bağlanması barədə qərar verdi. Bu, cinayət prosesi çərçivəsində qəbul edilən preventiv tədbir idi. Eyni gündə yuxarıdakı qanuna əsasən bağlanma haqqında qərarın surəti icra olunması üçün telekommunikasiya və informatika idarəsinə (Tİİ) göndərildi. 24 iyun 2009-cu ildə Tİİ-in müraciəti əsasında cinayət məhkəməsi qərarını dəyişdirərək Google Sites-a girişi bütünlüklə bağlanılmasını əmr etdi. Beləliklə, ərizəçinin öz səhifəsinə girişi qeyri-mümkün oldu. 1 iyul 2009-cu ildə bağlanma qərarına qarşı vəsatət qaldırdı və səhifəsinin qeyri-leqal məzmunu səbəbi ilə bağlanmış internet səhifəsi ilə heç bir əlaqəsi olmadığına görə tədbirin ləğv olunmasını xahiş etdi. 13 iyul 2009-cu ildə inzibati xətalar məhkəməsi ərizəçinin vəsatətini rədd etdi. 2012-ci ilin aprelində ərizəçi hələ də səhifəsinə girə bilmirdi. Halbuki, ərizədə olan məlumata görə mübahisələndirilən internet səhifəsinə qarşı olan cinayət prosesi dəlil yetərsizliyindən 2011-ci ilin martında xitam olunmuşdu.

*Hüquqi məsələlər* – Maddə 10: Mübahisələndirilən internet səhifəsinin bağlanması barədə preventiv tədbirin ardından məhkəmə Tİİ-nin müraciəti əsasında ərizəçinin səhifəsinin də yerləşdiyi Google Sites-a girişi də bağladı. Mübahisələndirilən tədbir maraqlı şəxsin ifadə azadlığı hüququna müdaxilə təşkil edən bir məhdudiyyət idi.

Mübahisələndirilən səhifəyə girişin bağlanmasının qanuni əsası vardı, lakin aydındır ki, nə ərizəçinin səhifəsi, nə də Google Sites bu qanunun tətbiq dairəsinə düşmür, çünki onların məzmunu hər hansı hüquq pozuntusundan şübhələnməyə əsas vermirdi. Bu səhifələrin heç biri cinayət prosesinə cəlb edilməmişdi. Digər tərəfdən, əgər Google Sites onda yerləşən hər hansı səhifənin məzmununa görə cavabdeh hesab edilə bilsə belə, qanun qətiyyən girişin bütünlüklə bağlanmasını nəzərdə tutmurdu. Bundan əlavə, heç bir şey

Google Sites-in onda yerləşən səhifənin məzmununun qanunsuz olması barədə məlumatı olması və ya barəsində cinayət prosesi olan səhifə ilə bağlı ilkin tədbirə riayət etmədiyi nəticəsinə gəlməyə imkan vermir. Üstəlik, qanun bir inzibati orqan olan Tİİ-nə bağlanma qərarının icrası çərçivəsində geniş səlahiyyətlər tanıyır: o, həmin səhifə və ya domenə qarşı cinayət prosesinin olmamasına və ya bütünlüklə bağlanmaya ehtiyac olub-olmadığının öyrənilmədiyinə baxmayaraq, bağlanma qərarının genişlənməsi barədə müraciət edə bilər.

Bu cür ilkin tədbirlər, a priori, Konvensiyaya zidd deyil. Bununla belə, onlar qadağanın dairəsi ilə bağlı xüsusilə ciddi qanuni çərçivədə olmalıdır və mümkün sui-istifadələrlə bağlı məhkəmə nəzarəti məsələsində səmərəli olmalıdır. Cinayət Məhkəməsi Tİİ-nin qanunsuz səhifənin bağlanması üçün tək yolun Google Sites-a ümumi girişin bağlanması barədəki rəyinə istinad etməklə kifayətləndi və daha az ağır tədbir barədə düşünmədi. Digər tərəfdən ərizəçi 1 iyul 2009-cu il tarixli etirazında iddia edirdi ki, digər səhifələrin mübahisələndirilən tədbirdən təsirlənməməsi üçün yalnız qanunsuz hesab edilən səhifənin bağlanmasına şərait yaradan metod seçmək lazımdır. Bununla belə, etiraza baxan məhkəmənin işdə olan müxtəlif maraqları nəzərə aldığı görünmür. Bu çatışmazlıq məhkəmələr üzərinə Google Sites-a girişin tamamilə bağlanması ehtiyacını Konvensiyanın 10-cu maddəsi ilə bağlı Məhkəmə tərəfindən həyata keçirilən meyarlar əsasında araşdırması vəzifəsi qoymayan qanunun özü ilə bağlı idi. Girişin bağlanması böyük həcmdə məlumatın əlçatan olmasının qarşısını alırdı, internet istifadəçilərinin hüquqlarına nəzərə çarpan dərəcədə təsir edirdi və ümumi olaraq əhəmiyyətli təsir qüvvəsinə malik idi. Beləliklə, müdaxilə öngörülə bilən deyildi və ərizəçiyə demokratik cəmiyyətdə hüququn aliliyinin tələb etdiyi dərəcədə müdafiədən istifadə etmək imkanı verməmişdir. Bu tədbir özbaşına təsiri bağışlayır və yalnız qanunsuz səhifəyə girişi bağlamaq məqsədi daşıdığı hesab edilə bilməz. Digər tərəfdən internet səhifələrinə girişin qadağan olunmasına məhkəmə nəzarəti sui-istifadələrin qarşısını almaq üçün lazım olan meyarlara malik deyildir; daxili qanunvericilik bir səhifənin bağlanması tədbirinin daha ümumi bir bağlanma üçün istifadə olunmasının qarşısının alınması üçün heç bir təminat nəzərdə tutmur.

Nəticə: **pozuntu** *(yekdilliklə)*

Maddə 41: mənəvi ziyana görə 7 500 Avro.

≈ ≈ ≈

4. Avropa Məhkəməsinin ***"M.Almaniyaya qarşı"*** [V Bölmə] (*Ərizə №* 19359/04*)* iş üzrə 17 dekabr 2009-cu il tarixli qərarından

Maddə 5
5-ci maddənin 1-ci bəndi
Azadlıqdan məhrumetmə
Qanuni tutulma və ya həbsə alınma
Preventiv həbs qərarından sonra ərizəçinin qanunla icazə verilən müddətdən artıq həbsdə saxlanılması: ***pozuntu baş verib***

Maddə 7
7-ci maddənin 1-ci bəndi
Cinayət əməli törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilməsi
Qanunun qüvvəsinin geriyə tətbiqi
Ən çoxu on il təşkil edən preventiv həbs müddətinin sonradan retrospektiv qaydada qeyri-müəyyən müddətə uzadılması: ***pozuntu baş verib***

*Faktlar* – 1986-cı ildə ərizəçi adam öldürməyə cəhdə görə məhkum olundu və beş il müddətinə azadlıqdan məhrum edildi. Bundan başqa, məhkəmə onun barəsində preventiv həbs tədbirinin tətbiqinə dair qərar çıxardı və hesab etdi ki, ərizəçi qurbanlarının şəxsi toxunulmazlıq hüququna qəsd edən cinayətlərə ciddi surətdə meylli olduğuna görə bu tədbir zəruridir. O, konkret olaraq adam öldürməyə cəhdə, oğurluğa, zor tətbiqi barədə təhdidlərə və şantaja görə dəfələrlə məhkum edilmiş və azadlıqdan məhrum olunmuşdu. Məhkəmənin rəyinə görə o, spontan zorakılıq aktlarına meylli idi və cəmiyyət üçün təhlükə təşkil edirdi. Ərizəçi cəza müddətini 1991-ci ildə başa vurmuşdu və o vaxtdan bəri preventiv həbsdə saxlanılırdı. 2001-ci ilin aprelində məhkəmə onu azad etməkdən imtina etdi və əvvəllər bu tədbir üçün nəzərdə tutulmuş on illik müddətin başa çatdığı tarixdən, yəni 8 sentyabr 2001-ci ildən sonra da onun həbsdə saxlanılmasını qərara aldı. Bu qərarı çıxararkən məhkəmə 1998-ci ildə qüvvəyə minmiş qanunla Cinayət Məcəlləsinə edilmiş dəyişiklikləri tətbiq etdi. O, qeyd etdi ki, qanunvericilikdəki dəyişikliklər qanunun qüvvəyə minməsindən əvvəl barəsində preventiv həbs tədbiri tətbiq edilmiş şəxslərə də şamil olunur və əlavə etdi ki, ərizəçinin əvvəllər törətdiyi cinayətlərin ağırlığını və yeni cinayət törətməsi ehtimalının olduğunu nəzərə alsaq, onun preventiv həbsdə saxlanılması qeyri-mütənasib tədbir deyil. Apellyasiya məhkəməsi təsdiq etdi ki, ərizəçinin cəmiyyətə yaratdığı təhlükə onun uzun müddət preventiv həbsdə saxlanılmasını zəruri edir və əlavə etdi ki, onun həbsdə saxlanılması cinayət qanununun qüvvəsinin geriyə şamil olunmasının qadağan edilməsi prinsipinə zidd deyil. Ərizəçi bu qərardan konstitusiya şikayəti verdi, amma şikayəti rədd edildi. Federal Konstitusiya Məhkəməsi konkret olaraq qərara aldı ki, preventiv həbsin maksimal müddətinin ləğvi və yeni qanunvericiliyin qəbu-

luna qədər cəza müddətini başa vuran və preventiv həbsdə saxlanılan cinayətkarlara bunun tətbiqi Konstitusiyaya zidd deyil. O, həmçinin hesab etdi ki, Cinayət Məcəlləsinin dəyişiklik edilmiş müddəasının qüvvəsinin geriyə şamil olunması qeyri-mütənasib tədbir deyil.

*Hüquqi məsələlər* – 5-ci maddənin 1-ci bəndi: Məhkəmə təsdiq etdi ki, 10 illik müddət bitənə qədər ərizəçinin preventiv həbsdə saxlanılması onun 1986-cı ildə "məhkum edilməsi"nin nəticəsi idi və beləliklə, 5-ci maddənin 1-ci bəndinin "a" yarımbəndinin tətbiq dairəsinə düşürdü. Lakin Məhkəmə müəyyən etdi ki, ərizəçinin məhkum edilməsi ilə preventiv həbsin on illik müddəti bitdikdən sonrakı dövrdə azadlıqdan məhrum edilməsi arasında səbəbiyyət əlaqəsi mövcud deyil, həmin dövrdən sonra onun saxlanılması yalnız 1998-ci ildə qanunvericilikdə edilmiş dəyişikliyin nəticəsi idi. Cəzaların icrası məsələlərinə görə cavabdeh olan məhkəmələr ərizəçinin həbsdə saxlanılmasının davam etdirilməsini belə əsaslandırmışdılar ki, o, azadlığa buraxılacağı təqdirdə bundan öncə məhkum olunmasına səbəb olmuş cinayətlər kimi ağır cinayətləri yenidən törədə bilər. Amma bu yeni potensial cinayətlər onların yeri, vaxtı və qurbanları baxımından Məhkəmənin presedent hüququnun tələb etdiyi kimi, dəqiq və konkret deyildi və beləliklə, 5-ci maddənin 1-ci bəndinin "c" yarımbəndinin tətbiq dairəsinə düşmürdü. Daxili məhkəmələr ərizəçinin həbsdə saxlanılmasının davam etdirilməsi barədə qərarlarını onun ruhi xəstə olması ilə əsaslandırmamışdılar. Buna görə də onun həbsdə saxlanılmasını 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndi ilə də əsaslandırmaq olmazdı. Beləliklə, on illik müddət başa çatdıqdan sonra ərizəçinin preventiv həbsdə saxlanılmasını 5-ci maddənin 1-ci bəndinin heç bir yarımbəndi ilə əsaslandırmaq mümkün deyildi.

Nəticə: **pozuntu baş verib** *(yekdilliklə)*.

7-ci maddənin 1-ci bəndi: Məhkəmə müəyyənləşdirməlidir ki, ərizəçinin preventiv həbsdə saxlanılması bu bənddə nəzərdə tutulan mənada "cəza" təşkil edirdimi? Almaniya qanunvericiliyinə əsasən belə tədbir qanunun qüvvəsinin geriyə şamil olunmasının qadağan edilməsi prinsipinin tətbiq edildiyi cəza tədbiri sayılmırdı, o, cəmiyyətin təhlükəli cinayətkardan müdafiəsinə yönələn islahedici və profilaktik tədbir sayılırdı. Lakin məhkəmə hökmü əsasında tətbiq edilən sanksiya kimi preventiv həbs də şəxsin azadlıqdan məhrum edilməsinə səbəb olurdu. Preventiv həbsə məruz qalan şəxslər həbsxananın ayrıca bölməsində qalsalar da, hər halda adi həbsxanalarda saxlanılırdılar. Şəxsin cəza çəkməkdə olan adi məhkumun saxlanıldığı rejimdən azacıq fərqlənən rejimdə saxlanılması, o cümlədən öz paltarlarından istifadə etmək və saxlanıldığı daha rahat kameraya əlavə avadanlıqlar qoy-

maq hüququna malik olması bu faktı dəyişmirdi və ittiham hökmü əsasında təyin olunmuş cəzanın çəkilməsi ilə preventiv həbsdə saxlanılma arasında heç bir mühüm fərq yox idi. Hazırda preventiv həbsdə olan şəxslərin təkrar cinayət törətmələrinin qarşısını almaq məqsədi ilə onlara xüsusi psixoloji yardım göstərilməsi nəzərdə tutulmayıb. Buna görə də Məhkəmə Hökumətin bu arqumenti ilə razılaşa bilməz ki, preventiv həbs cəza məqsədinə deyil, profilaktik məqsədə xidmət edir. Cinayət Məcəlləsinə əsasən preventiv həbs barədə qərarlar yalnız müəyyən ağırlıq dərəcəsi olan cinayətləri törətmiş şəxslər barəsində qəbul edilə bilərdi. Preventiv həbsin müddətinin qeyri-müəyyən olduğunu nəzərə alsaq, bu tədbir əlavə cəza tədbiri və açıq-aydın çəkindirici elementə malik tədbir sayıla bilərdi. Cinayət ədliyyəsi sisteminə daxil olan məhkəmələr preventiv həbs barədə qərarların qəbulunda və icrasında iştirak edirdilər. Şəxs şərti olaraq azadlığa buraxılmaqla preventiv həbsin dayandırılmasına yalnız o halda yol verilirdi ki, məhkəmə məhkumun yeni cinayət törətməyəcəyi qənaətinə gəlsin, bu isə çox çətin şərt idi. Beləliklə, bu tədbir Almaniya Cinayət Məcəlləsində nəzərdə tutulmuş ən sərt tədbir olmasa belə, hər halda ən sərt tədbirlərdən biri idi. Yuxarıdakıları nəzərə alaraq Məhkəmə bu qənaətə gəldi ki, Almaniya Cinayət Məcəlləsində nəzərdə tutulmuş preventiv həbsə 7-ci maddənin 1-ci bəndinin məqsədləri üçün "cəza" kimi baxmaq olar. Həmçinin Hökumətin bu arqumenti də Məhkəməni inandırmadı ki, ərizəçinin həbsdə saxlanma müddətinin uzadılması sadəcə olaraq birinci instansiya məhkəməsi tərəfindən təyin edilmiş cəzanın icrası idi. Ərizəçinin cinayət törətdiyi vaxtı nəzərə alsaq, o, on ildən artıq preventiv həbsdə saxlanıla bilməzdi, bu müddətin artırılması isə əlavə cəzaya bərabər idi və bu cəza onun cinayət törətməsindən sonra qəbul edilmiş qanun əsasında ona retrospektiv qaydada tətbiq edilmişdi.

Nəticə: **pozuntu baş verib** *(yekdilliklə).*

Maddə 41: Mənəvi ziyana görə 50.000 avro təyin edildi.

**Mənbə:** *Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*

# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

## Azərbaycan Respublikasında inzbati məhkəmə icraatı: nəzəri və təcrübi problemlər

Ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılmış ən mühüm addımlardan biri də inzibati məhkəmə icraatı qaydasında ədalət mühakiməsinin həyata keçirilməsinə başlanılması olmuşdur. Məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları ilə ölkədə ilk dəfə olaraq inzibati məhkəmələrin fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. İnzibati hüquq münasibətlərindən yaranan mübahisələrə baxan inzibati məhkəmələr dövlət orqanları ilə digər şəxslər arasında mübahisələrin həllində effektiv mexanizmə çevrilməklə hüquqi dövlət quruculuğunda mühüm təsisatlardan birinə çevirilmişdir. Bu bir tərəfdən vətəndaşların hüquqlarının daha effektiv müdafiəsinə imkan vermiş, digər tərəfdən inzibati orqanları daha səmərəli və qüsursuz fəaliyyət göstərməyə sövq etmişdir. 2011-ci ilin yanvar ayından fəaliyyətə başlayan inzibati məhkəmələr yeni olduğundan məhkəmə təcrübəsində ötən illər ərzində qanunvericiliyin tətbiqi sahəsində müxtəlif çətinliklər ortaya çıxmış, inzibati məhkəmə icraatı sahəsində əsas normativ aktlar olan "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə bağlı bir çox seminarlar keçirilmiş, məqalələr dərc olunmuşdur.

Bülletenimizin ötən saylarında inzibati məhkəmə icraatı ilə bağlı bir neçə məqalə yayımlanmışdır. Bu sahənin aktuallığını, məhkəmə təcrübəsinin formalaşması prosesinin davam etdiyini, kazual məsələlərin çoxluğunu nəzərə alaraq məqalədə inzibati məhkəmə icraatında ortaya çıxan bəzi məsələlər ətrafında mülahizələrimizi oxucularla paylaşmaq istərdik.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 35.1-ci maddəsinə görə həmin məcəllədə başqa qayda nəzərdə tutulmamışdırsa, iddiaçının iddia ərizəsində inzibati aktın qəbul edilməsi və ya qəbul edilməsindən imtina olunması, yaxud inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində onun hüquqlarının və qanunla qorunan maraqlarının pozulduğunu əsaslandırdığı hallarda mübahisələndirmə haqqında, məcburetmə haqqında, öhdəliklərin icrası haqqında və müəyyən

hərəkətləri etməkdən çəkinməyə dair iddia mümkün sayılır. Bu maddədə istifadə olunan "əsaslandırdığı" ifadəsi təcrübədə çaşqınlıq yaradır. Belə bir təsəvvür yaranır ki, əgər iddiaçı iddia tələbini öz ərizəsində əsaslandırmırsa və ya əsaslandıra bilmirsə bu zaman həmin məcəllənin 35.3-cü maddəsinə əsasən iddianın mümkün sayılmaması barədə məhkəmə qərardad qəbul edir. Halbuki, burada iddia tələbinin əsasandırılmasından deyil, şəxsin subyektiv hüququnun pozulmasının əsaslandırılmasından (istinad olunmasından) söhbət gedir. Bu fərqləndirmə haqqında bülletenimizin əvvəlki buraxılışlarında daha ətraflı bəhs olunmuşdur.[1] Nəzərə almaq lazımdır ki, İnzibati Prosessual Məcəllənin 32-36-cı maddələrində yalnız iddianın mümkünlük məsələlərindən söhət gedir, iddianın əsaslılığı məsələlərindən isə məcəllənin 70-74-cü maddələrində bəhs olunur. Fikrimizcə məhkəmə təcrübəsində çaşqınlıq yaratdığından İnzibati Prosessual Məcəllənin 35.1-ci maddəsindəki *"əsaslandırdığı"* sözünün *"istinad etdiyi"* və ya *"bildirdiyi"* sözləri ilə əvəz olunması məqsədəmüvafiq olardı.

Digər bir məsələ inzibati məhkəmə icraatında Mülki Prosessual Məcəllənin müddəalarının analogiya qaydasında tətbiqi ilə bağlıdır. Düzdür İnzibati Prosessual Məcəllənin 1.2-ci maddəsinə görə Mülki Prosesual Məcəllənin müddəaları analogiya qaydasında tətbiq edilə bilər. Lakin həmin maddədə bu analogiyadan istifadə onunla məhdudlaşdırılır ki, bu İnzibati Prosessual Məcəllənin prisiplərinə zidd olmamalıdır. Lakin məhkəmə təcrübəsində bir sıra hallarda mülki prosesə lüzumsuz, düzgün olmayan istinadlar edilir. Bu xüsusilə iddiaçının tələbi ilə ərizənin geri qaytarılması, rüsum məsələləri ilə bağlı hallarda baş verir. Fikrimizcə analogiya tətbiq edərkən istənilən halda İnzibati Prosessual Məcəllənin prinsipləri nəzərdən keçirilməlidir. Müqayisəli təhlil etsək əslində mülki və inzibati məhkəmə icraatının prinsiplərinin bir çoxu eyniyyət təşkil edir. Hakimlərin müstəqilliyi, qanun və məhkəmə qarşısında bərabərlik, çəkişmə, məhkəmə baxışının aşkarlığı kimi prinsiplər mahiyyət etibarı ilə hər iki məcəllədə uyğunluq təşkil edir. Buradan aydın olur ki, qanunverici analogiyanın tətbiqi zamanı İnzibati Prosessual Məcəllənin o prinsiplərinin gözdən keçirilməsini nəzərdə tutur ki, onlar ya ümumiyyətlə Mülki Prosesual Məcəllədə göstərilmir, ya da Mülki Prosesual Məcəllədən fərqli qaydalar müəyyən edir. Bunlara İnzibati Prosessual Məcəllənin 12 və 13-cü maddələrində nəzərdə tutulan "*işin hallarının araşdırılması*" və "*məhkəmənin yardım etmək vəzifəsi*" kimi prinsip və şərtlər aiddir. Yəni inzibati məhkəmə icraatı zamanı mülki prosesin müddəalarını analogiya üzrə tətbiq edərkən mütləq

[1] Naxçıvan MR Ali Məhkəməsinin Bülleteni, 2014-cü il, N 2, səh 58

inzibati prosesin yuxarıda qeyd edilən fərqli prinsipləri nəzərdən keçirilməlidir. Əks halda, yəni Mülki Prosesual Məcəlləyə inzibati məhkəmə icraatının qeyd olunan prinsiplərinə zidd istinad edilməsi mübahisəyə məhz inzibati məhkəmə icraatı qaydasında baxılmasının əhəmiyyətini aradan qaldırmış olardı.

Digər toxunmaq istədiyimiz məsələ İnzibati Prosessual Məcəllənin 38 və 39-cu maddələrində nəzərdə tutulan iddia müddətləri ilə bağlıdır. İnzibati Prosessual Məcəllənin 2-ci maddəsində nəzərdə tutulan iddia növlərindən yalnız mübahisələndirmə və məcburetmə haqqında iddialar üçün iddia müddətləri müəyyən edilmişdir. Öhdəliyin icrası, müəyyən hərəkətləri etməkdən çəkinməyə dair, müəyyən etmə və tanıma haqqında, qanunauyğunluq haqqında iddialarda iddia müddəti inzibati prosessual qanunvericilikdə nəzərdə tutulmamışdır.

İnzibati Prosessual Məcəllənin 38-ci maddəsinə görə inzibati orqanın inzibati akt qəbul etdiyi və ya inzibati akt qəbul etməkdən imtina etdiyi, lakin hər bir halda şəxsə yazılı məlumat verdiyi təqdirdə iddia müddəti 30 gün təşkil edir. Lakin inzibati orqan tərəfindən müraciətlə bağlı heç bir qərar qəbul edilmədiyi halda İnzibati Prosessual Məcəllənin 39.1-ci maddəsinə əsasən şəxsin müraciət etdiyi tarixdən 35 gün keçdikdən sonra (inzibati orqanın qərar qəbul etməsi üçün) məhkəmədə iddia qaldırmaq hüququ təsbit olunur. Lakin həmin maddədə 35 günlük müddətin keçməsindən sonra iddianın hansı müddətdə qaldırılması göstərilməyib. Burada belə bir sual yaranır. ***Şəxs inzibati orqana müraciət etdikdən 35 gün keçdikdən sonra istənilən vaxt məhkəmədə iddia qaldıra bilərmi?*** Bir qrup hüquqşünaslar hesab edir ki, burada iddia müddətinin tətbiqinə ehtiyac yoxdur və fikirlərini onunla əsaslandırırlar ki, onsuz da inzibati orqana müraciət edən şəxs müraciətinə 35 gün ərzində cavab almadıqda qısa zamanda məkəməyə müraciət etməkdə maraqlı olacaq. Fikrimizcə bu cür yanaşma hüquqi nöqteyi nəzərdən olduqca mübahisəlidir. Məsələyə hüquqi müəyyənlik prinsipi baxımından yanaşdıqda, habelə İnzibati Prosessual Məcəllənin 38-ci maddəsində nəzərdə tutulan 30 günlük müddəti nəzərə alaraq 39.1-ci maddədə də iddia müddətinin müəyyən edilməsini daha məqbul hesab edirik.

Toxunacağımız məsələlərdən biri də inzibati məhkəmə icraatında apellyasiya instansiyası tərəfindən mümkünlük şərtlərinin yoxlanılması ilə bağlıdır. Belə ki, Mülki Prosessual Məcəllədən fərqli olaraq İnzibati Prosessual Məcəllədə apellyasiya şikayətinin birinci instansiya məhkəməsi tərəfindən qaytarılması nəzərdə tutulmamışdır. İnzibati Prosessual

Məcəllənin 86.3-cü maddəsində göstərilmişdir ki, məhkəmə şikayətin daxil olduğu vaxtdan beş gün müddətində həmin şikayəti mübahisə ilə bağlı işin materialları ilə birlikdə müvafiq apellyasiya instansiya məhkəməsinə göndərir. Bu halda apellyasiya məhkəməsinin hansı prosessual hərəkətləri etməli olması Məcəllədə nəzərdə tutulmamışdır. Hesab edirik ki, İnzibati Prosessual Məcəllənin 87.2-ci maddəsinə əsasən apellyasiya instansiya məhkəməsi apellyasiyanın mümkünlüyü əsaslarını yoxlayarkən inzibati icraatın mülki icraatdan fərqlənən əsas prinsiplərini nəzərə almalı, şikayət verən şəxsə yardım etməli, şikayət verən şəxs göstərilən yardıma baxmayaraq İnzibati Prosessual Məcəllədə göstərilən tələblərə əməl etmədiyi halda apellyasiya mümkün sayılmayaraq şikayətin qəbulundan imtina edilməlidir.

İnzibati Prosessual Məcəllənin təcrübədə çətinliklərə səbəb olan maddələrindən biri də 29.2-ci maddəsidir. Belə ki, həmin maddəyə görə yalnız zəruri cəlb etmə qaydasında prosesə cəlb olunmuş üçüncü şəxslər ***tərəflərin tələbləri daxilində fərqli tələblər*** irəli sürə bilərlər. Əgər həmin şəxslər fərqli tələb irəli sürürlərsə, onda onlar inzibati prosesdə iddiaçı statusunu əldə edirlər. Göründüyü kimi həmin maddədə *"tərəflərin tələbləri daxilində fərqli tələblər"* ifadəsi anlaşılan deyil. İnzibati Prosessual Məcəllənin 28.2-ci maddəsində göstərilir ki, mübahisə edilən hüquq münasibətində üçüncü şəxsin iştirakının xarakteri inzibati məhkəmə icraatının tərəfləri və həmin üçüncü şəxs barəsində vahid qərarın qəbul olunmasını şərtləndirdiyi hallarda həmin şəxs iştirakçı kimi inzibati məhkəmə icraatına mütləq cəlb edilməlidir (zəruri cəlb etmə). Əgər zəruri cəlb etmə qaydasında inzibati icraata cəlb olunmuş üçüncü şəxs fərqli tələb irəli sürürsə məhkəmə icraatın tərəfləri və həmin üçüncü şəxs barəsində necə vahid qərar qəbul edə bilər? Həmçinin Məcəllədə məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslərin hansı prosessual hüquqlara malik olmaları dəqiq sadalanmamış, yalnız 29.1-ci maddədə göstərilmişdir ki, üçüncü şəxslər tərəflərdən birinin tələbləri daxilində öz maraqlarını qorumaq məqsədilə müstəqil şəkildə mümkün hüquqi vasitələrdən istifadə etmək və prosessual hərəkətləri həyata keçirmək hüququna malikdirlər.

İnzibati Prosessual Məcəllədə apellyasiya instansiya məhkəməsi tərəfindən şikayətin mümkünlüyünün yoxlanılması üçün konkret müddət müəyyən edilməmişdir. Təcrübədə bir çox hallarda apellyasiya instansiya məhkəməsi tərəfindən İnzibati Prosessual Məcəllənin 2.1-ci maddəsinə (analogiya) istinad olunmaqla Mülki Prosessual Məcəllənin 366.1-ci maddəsinin tələbinə əsasən apellyasiyanın mümkünlüyü iş məhkəməyə

daxil olduqdan sonra 15 gün müddətində yoxlanılır. Digər tərəfdən İnzibati Prosessual Məcəllənin 87.4-cü maddəsinin tələbinə əsasən apellyasiya şikayətinin mümkün sayılmaması barədə qərardad qəbul edilməmişdən əvvəl proses iştirakçılarının dinlənilmək hüququ təmin olunmalıdır. Fikrimizcə, burada Mülki Prosessual Məcəllənin 366.1-ci maddəsinə istinadən müddətin tətbiqi İnzibati Prosessual Məcəllənin məqsəd və prinsipləri prizmasından baxdıqda düzgün hesab edilə bilməz.

İnzibati Prosessual Məcəllənin 87.6-cı maddəsində apellyasiya məhkəməsinin yalnız birinci instansiya məhkəməsinin qərarını dəyişdirmədən qüvvədə saxlaması, dəyişdirə bilməsi və ya tam və ya qismən ləğv edərək yeni qərar qəbul etməsi kimi səlahiyyətləri nəzərdə tutulmuşdur. Birinci instansiya məhkəməsinin şikayət verilən qərardadlarına münasibətdə isə apellyasiya məhkəməsinin səlahiyyətlərinə aid hər hansı bir norma yoxdur, bu da apellyasiya icraatında norma tətbiqi zamanı çətinliklərə səbəb olur. Lakin Məcəllənin 96.9-cu maddəsində Ali Məhkəmənin apellyasiya məhkəməsinin qərarını (qərardadını) dəyişdirmədən qüvvədə saxlaması, dəyişdirə bilməsi və ləğv edərək (tam və ya qismən) yeni qərar qəbul edə bilməsi nəzərdə tutulmuşdur. Hesab edirik ki, belə halda inzibati iş üzrə qəbul edilən qərardadlardan verilən şikayətlər üzrə İnzibati Prosessual Məcəllənin 96.9-cu və Mülki Prosessual Məcəllənin apellyasiya məhkəməsinin səlahiyyətini müəyyən edən müvafiq maddələrinə istinad olunması məqsədəuyğundur.

İnzibati Prosessual Məcəllənin 87.7-ci maddəsində apellyasiya məhkəməsinin birinci instansiya məhkəməsi tərəfindən mahiyyəti üzrə qərar qəbul edilmədikdə barəsində şikayət verilmiş məhkəmə qərarını ləğv edərək işi birinci instansiya məhkəməsinə göndərmək səlahiyyəti nəzərdə tutulur. ***"Mahiyyəti üzrə qərar qəbul edilməməsi"*** ifadəsi bu maddənin tətbiqi zamanı anlaşılmazlığa səbəb olur. Belə ki, əgər birinci instansiya məhkəməsi mahiyyəti üzrə deyil, səhv qərar qəbul edibsə işi müvafiq məhkəməyə göndərmək əvəzinə apellyasiya məhkəməsi Məcəllənin 87.7-ci maddəsinin tələbinə uyğun olaraq mübahisə ilə bağlı işə mahiyyəti üzrə baxaraq həll edə bilər. Həmçinin hesab edirik ki, iddianın mümkün sayılmaması apellyasiya instansiya məhkəməsi tərəfindən düzgün hesab edilmədikdə bu mahiyyəti üzrə qərar qəbul edilməməsi kimi qiymətləndirilməlidir.

Təcrübədə prosessual həmiştirakçılığa aid İnzibati Prosessual Məcəllənin 30-cu maddəsinin tətbiqində də çətinliklər meydana çıxır. Həmin maddənin tələbinə əsasən mübahisə predmeti baxımından müştərək hüquqi maraqlara

malik olan və yaxud da hüquq və vəzifələri eyni faktiki və hüquqi əsaslara söykənən bir neçə şəxs birgə iddiaçı və ya birgə cavabdeh qismində prosessual həmiştirakçılar kimi çıxış edə bilərlər. Həmçinin mübahisə predmetini eyni növdən olan, uyğun faktiki və hüquqi əsaslara söykənən tələblərin və vəzifələrin təşkil etdiyi hallarda da bir neçə şəxs birgə iddiaçı və ya birgə cavabdeh qismində prosesual həmiştirakçılar kimi çıxış edə bilərlər. Burada bir neçə şəxsin birgə iddiaçı və ya birgə cavabdeh qismində prosessual həmiştirakçılar kimi çıxış edə bilmələrindən söhbət gedir. Bildiyimiz kimi publik hüquq münasibətilə əlaqədar inzibati mübahisələrdə tərəflərdən biri mütləq inzibati orqan olmalıdır. Burada "şəxs" sözünün istifadəsi anlaşılmazlıq yaradır. Şəxs sözünün inzibati orqanları da əhatə edib etməməsi sual doğurur. Təcrübədə isə inzibati orqanların prosessual həmiştirakçılığı qəbul edilmir.

Son zamanlar məhkəmə təcrübəsində ortaya çıxan çətinliklərdən biri də inzibati icraatla əlaqəli hərəkətlə inzibati xətaların təqibinə yönəlmiş hərəkətlərin bir-birindən fərqləndirilməsi ilə bağlıdır. Belə ki, təcrübədə bir çox hallarda inzibati orqanın preventiv fəaliyyəti və inzibati xəta təqibi ilə bağlı fəaliyyəti ardıcıllıq təşkil edir. Məsələn, bayram şənliyi ilə bağlı dövlət yol polisi mərkəzi küçəni təhlükəsizlik məqsədilə avtonəqliyyat vasitələri üçün bağlamışdır. Bu hərəkət təbii ki, özlüyündə hakimiyyət tədbiri olmaqla inzibati aktdır. Lakin sonradan vətəndaş tərəfindən bu tədbirlərin pozulması nəticəsində inzibati xəta təqibi başlanırsa artıq burada inzibati mübahisə deyil, inzibati xətalara dair işlərdən söhbət gedir və mübahisələr ümumi məhkəmədə inzibati xətalara dair işlər üzrə icraat çərçivəsində həll olunmalıdır.

Yuxarıda qeyd etdiklərimizə yekun vursaq belə nəticəyə gələ bilərik ki, inzibati məhkəmə icraatı zamanı ortaya çıxacaq kazual məsələləri həll edərkən hər bir halda inzibati məhkəmə icraatının məqsəd və təyinatını nəzərdən keçirmək zəruridir.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. Bakı, Qanun, 2016.
2. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu.
3. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanununun kommentariyası. S.Kərimov, G.Vəliyeva, Bakı: "SeNa", 2006
4. Azərbaycanda inzibati məhkəmə icraatı. A.Köniqsmann, Bakı, 2013
5. www.inzibati.az internet resursu.

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2016-cı ildə baxdığı bir sıra işlər haqqında

Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri hakimləri Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə çıxarılmış qərarları ilə müntəzəm olaraq tanış etməkdən ibarətdir. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı buraxılışında 2016-cı ildə Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2016-cı ildə Məhkəmə-Hüquq Şurası tərəfindən 20 hakim barəsində intizam icraatı başlanılmış, həmin intizam icraatları üzrə 12 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 29 fevral, 08 aprel, 12 iyul və 13 oktyabr 2016-cı il tarixli iclaslarında qəbul olunmuşdur. Həmin qərarlar əsasında intizam icraatı başlanılan hakimlərdən 1 nəfər Ucar Rayon Məhkəməsinin, 1 nəfər Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin, 2 nəfər Beyləqan Rayon Məhkəməsinin, 1 nəfər Şəki Apellyasiya Məhkəməsinin, 1 nəfər Sumqayıt Şəhər Məhkəməsinin və 1 nəfər Zaqatala Rayon Məhkəməsinin hakimlərinin barəsində töhmət verilmişdir. Barəsində intizam icraatı başlanılmış 1 nəfərə-Hacıqabul Rayon Məhkəməsinin hakiminə irad tutulmuşdur.

Həmin qərarlar əsasında barəsində intizam icraatı başlanılmış 2 nəfər hakimin (Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi və Balakən Rayon Məhkəməsinin hakimlərinin) iş yerlərinin dəyişdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinə müraciət olunmuşdur.

Barəsində intizam icraatı başlanılmış 2 hakim barəsində müzakirə ilə kifayətlənməklə (Sumqayıt Şəhər Məhkəməsinin və Bakı Şəhəri Binəqədi Rayon Məhkəməsinin) intizam icraatlarına xitam verilmişdir.

İntizam icraatının başlanmasına 5 halda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, 2 halda Azərbaycan Respublikası Ali Məhkəməsinin, 2 halda Bakı Apellyasiya Məhkəməsinin, 2 halda Sumqayıt Apellyasiya Məhkəməsinin və 1 halda Şəki Apellyasiya Məhkəməsinin müraciətləri əsas olmuşdur.

4 halda intizam icraatının başlanmasına səbəb əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması, 8 halda isə işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 iyul 2016-cı il tarixli qərarından görünür ki, Beyləqan Rayon Məhkəməsinin sədri Şirvanov Maşalla Nəcəfəli oğlu xidməti vəzifələrinin icrasına laqeyd münasibət bəsləmiş, məhkəmədə işin təşkilini və məhkəmə aparatının işinə rəhbərliyi lazımi səviyyədə həyata keçirməmiş, icraatında olmuş işlər və materiallar üzrə prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermişdir. Belə ki, hakim Maşalla Şirvanov öyrənilmiş 106 mülki işin təxminən hər ikisindən biri üzrə “işin məhkəmədə baxılmağa hazırlanması haqqında qərardadlar”ı ümumiyyətlə tərtib etməmişdir. Bu kimi halların nəticəsində hakim M.Şirvanov məhkəmə araşdırmalarının aparılmasına, işlərin mahiyyəti üzrə baxılmasına və qətnamə qəbul edilməsinə yönələn zəruri hərəkətləri etməmişdir.

Hakim M.Şirvanov Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin işin məhkəmə baxışına təyin edilməsindən bəhs edən 171-ci maddəsinin tələblərini də pozaraq öyrənilmiş 106 mülki işin 54-ü və ya təxminən hər ikisindən biri üzrə, 02.02.2016-cı il tarixə kimi ötən müddət ərzində, müstəqil akt şəklində “işin məhkəmə baxışına təyin edilməsi haqqında” qərardad çıxarmamışdır. Buna baxmayaraq həmin işlərin həllinə dair yekun məhkəmə aktları (qətnamə və ya qərardadlar) qəbul etmişdir.

Mülki prosessual qanunvericiliyin 263-cü maddəsinin tələbləri pozularaq 941/15 nömrəli mülki iş üzrə “işin məhkəmə baxışına təyin edilməsi haqqında” 30.06.2015-cı il tarixli qərardad hakim M.Şirvanov tərəfindən 7 aydan artıq müddət ərzində imzalanmamışdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi (387.2.7 və 387.3-cü maddələr) işdə məhkəmə iclasının protokolunun olmamasını və ya imzalanmamasını prosessual normaların kobud pozulması kimi qiymətlən-

dirməsinə baxmayaraq, hakim M.Şirvanovun sədrliyi ilə baxılmış 106 mülki işin 78-i, təxminən hər üçündən ikisi üzrə həmin Məcəllənin protokolun tərtib edilməsinin məcburiliyindən bəhs edən 270-272-ci maddələrinin tələbləri kobud şəkildə pozulmuşdur.

Məsələn, hakim M.Şirvanovun sədrliyi ilə baxılmış 27 mülki iş üzrə 19.02.2015-ci, 25.06.2015-ci, 30.06.2015-ci, 07.07.2015-ci, 21.07.2015-ci, 12.08.2015-ci, 20.08.2015-ci, 01.10.2015-ci, 02.10.2015-ci, 14.10.2015-ci, 19.10.2015-ci, 20.10.2015-ci, 21.10.2015-ci, 28.10.2015-ci, 02.11.2015-ci, 04.11.2015-ci, 16.11.2015-ci, 19.11.2015-ci, 26.11.2015-ci, 28.11.2015-ci, 07.12.2015-ci, 22.12.2015-ci, 28.12.2015-ci və 29.12.2015-ci il tarixlərdə mahiyyəti üzrə qətnamələr çıxarılmasına, həmçinin qanuni qüvvəyə minmiş həmin qətnamələrin icraya yönəldilməsinin təmin edilməsinə baxmayaraq 02.02.2016-cı il tarixə kimi ötən 1-11 aydan artıq müddət ərzində məhkəmə prosesləri ilə bağlı heç bir protokol tərtib edilməmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 272.7-ci maddəsinin tələblərinə zidd olaraq hakim M.Şirvanovun sədrliyi ilə baxılmış digər 28 mülki iş üzrə "ərizənin baxılmamış saxlanılmasına dair", həmçinin 3 mülki iş üzrə (49/15, 1201/15 və 1535/15 nömrəli), müvafiq olaraq: 28.09.2015-ci, 29.10.2015-ci və 10.11.2015-ci il tarixlərdə "mülki işin icraatına xitam verilməsinə dair" qərardadlar çıxarılmasına baxmayaraq onların heç biri üzrə 02.02.2016-cı il tarixə kimi ötən 1-12 aydan artıq müddət ərzində işə baxmanın mühüm anlarını əks etdirən prosessual sənəd – protokol tərtib olunmamışdır.

Hakim M.Şirvanovun sədrliyi ilə baxılmış 20 mülki iş üzrə keçirilmiş məhkəmə prosesləri ilə bağlı tərtib olunmuş protokollar 02.02.2016-cı il tarixə kimi ötən 1-12 aydan artıq müddət ərzində məhkəmə iclas katibi tərəfindən imzalanmamışdır. Bu kimi qanun pozuntularına yol verilməsi proses tərəflərinin həmin protokollar barədə yazılı qeydlər vermək hüquqlarını da məhdudlaşdırmışdır.

Müəyyən edilmişdir ki, hakim M.Şirvanovun sədrliyi ilə baxılmış 673/15, 1013/15, 1020/15, 1057/15, 1145/15, 1303/15, 1417/15, 1519/15, 1525/15, 1643/15, 1745/15, 1779/15, 1819/15, 2021/15, 2177/15, 2199/15, 2221/15, 2243/15, 2275/15 və 2599/15 nömrəli mülki işlər üzrə dindirilmiş 20 nəfərdən çox şahidin vəzifələrinin və məsuliyyətinin izah edilməsi ilə bağlı alınmış iltizamların heç birində tarix yazılmamışdır. 02.02.2016-cı il tarixə kimi ötən 1-7 aydan artıq müddət ərzində bu mülki işlər üzrə məhkəmə baxışlarının protokolları tərtib edilmədiyinə və iltizamlarda tarix

yazılmadığına görə həmin şahidlərin nə vaxt dindirilməsini də müəyyən etmək mümkün olmamışdır.

Müəyyən edilmişdir ki, hakim M.Şirvanovun sədrliyi ilə baxılmış 106 iddia ərizəsinin 28-i (5/15, 191/15, 377/15, 471/15, 509/15, 673/15, 777/15, 873/15, 911/15, 1117/15, 1349/15, 1411/15, 1413/15, 1531/15, 1533/15, 1545/15, 1629/15, 1639/15, 1693/15, 1815/15, 1845/15, 1895/15, 2129/15, 2157/15, 2223/15, 2237/15, 2435/15 və 2441/15 nömrəli) təxminən hər dördündən biri üzrə iddianın baxılmamış saxlanması haqqında qərardad çıxarılmışdır. Bu mülki işlər üzrə iddianın baxılmamış saxlanması haqqında çıxarılmış qərardadların surətlərinin tərəflərə göndərilməsinə dair heç bir sübutedici sənəd olmamışdır. Nəticədə, mülki prosessual qanunvericiliyin qərardadlardan şikayət verilməsindən, onun müddətindən və şikayətə baxılmasından bəhs edən 260, 267-269-cu maddələrinin tələbləri pozulmuşdur.

Mülki prosessual qanunvericiliyin qətnamənin tərtibindən bəhs edən 227.3-cü maddəsinin (məhkəmənin qətnaməsi işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməlidir) tələbləri hakim M.Şirvanovun sədrliyi ilə baxılmış çoxsaylı mülki işlər üzrə pozulmuşdur. Belə ki, 212/15, 1057/15, 1815/15 və 2021/15 nömrəli mülki işlər üzrə tərtib edilmiş 19.02.2015-ci, 07.07.2015-ci, 02.11.2015-ci və 04.11.2015-ci il tarixli qətnamələrin surətləri 02.02.2016-cı il tarixə kimi ötən 2-9 aydan artıq müddət ərzində işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməmişdir.

Bundan əlavə, Mülki Prosessual Məcəllənin 135 və 136-cı maddələrinin tələblərinə hakim M.Şirvanovun sədrliyi ilə baxılmış işlər üzrə 25.06.2015-ci, 30.06.2015-ci, 21.07.2015-ci, 12.08.2015-ci, 01.10.2015-ci, 02.10.2015-ci, 14.10.2015-ci, 19.10.2015-ci, 20.10.2015-ci, 21.10.2015-ci, 28.10.2015-ci, 16.11.2015-ci, 19.11.2015-ci, 20.08.2015-ci, 26.11.2015-ci, 28.11.2015-ci, 22.12.2015-ci, 28.12.2015-ci və 29.12.2015-ci il tarixlərdə çıxarılmış qətnamələrin surətlərinin tərəflərə təqdim edilməsinə dair qəbzlərdə (bir sıra hallarda isə göndəriş məktublarında) 02.02.2016-cı il tarixə kimi ötən müddət ərzində tarixlər yazılmamışdır. Nəticədə, məhkəmə sənədlərinin işdə iştirak edən şəxslərə rəsmi qaydada nə vaxt verilməsini sübut edən tarixlərin təhrif edilməsinə şərait yaradılmışdır.

Müəyyən edilmişdir ki, Beyləqan Rayon Məhkəməsinin hakimi M.Şirvanovun sədrliyi ilə ədalət mühakiməsi həyata keçirilərkən cinayət-prosessual qanunvericiliyin tələbləri də kütləvi şəkildə pozulmuşdur. Məsələn, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin

298.2.1-ci maddəsinin tələbləri (məhkəmənin hazırlıq iclası cinayət işi məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində təmin edilir) pozularaq müddətin uzadılmasına dair müvafiq qərar olmadan "Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərar hakim M.Şirvanov tərəfindən 1/16 nömrəli cinayət işi üzrə 1 ay 26 gündən, 3/16 nömrəli cinayət işi üzrə 1 ay 23 gündən, 27/15 nömrəli cinayət işi üzrə 1 ay 2 gündən, 15/16 nömrəli cinayət işi üzrə 25 gündən və 21/16 nömrəli cinayət işi üzrə isə 24 gündən sonra qəbul edilmişdir.

M.Şirvanovun sədrliyi ilə baxılmış cinayət işlərində Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin məhkəmə baxışının təyin edilməsindən bəhs edən 301.2-ci maddəsinin tələbləri də kütləvi şəkildə pozulmuşdur. Məsələn, 15/14, 61/14, 23/15, 77/15, 1/16, 3/16, 7/16, 9/16, 11/16, 15/16, 19/16, 20/16 və 21/16 nömrəli cinayət işləri üzrə, hakim M.Şirvanovun sədrliyi ilə müvafiq olaraq: 01.10.2014-cü, 04.03.2015-ci, 27.04.2015-ci, 09.09.2015-ci, 29.10.2015-ci, 16.11.2015-ci, 16.11.2015-ci, 17.11.2015-ci, 07.01.2016-cı, 15.01.2016-cı, 01.02.2016-cı il tarixlərdə çıxarılmış "Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərarların heç birində ibtidai araşdırma mərhələsində təqsirləndirilən şəxslər barəsində seçilmiş qətimkan tədbirlərinin dəyişdirilmədən saxlanılması (ləğv edilməsi, dəyişdirilməsi və ya seçilməsi) haqqında qərar, həmçinin təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması və cinayət mühakimə icraatının dilinin seçilməsi məsələləri göstərilməmişdir. Nəticədə, qeyd edilən cinayət işləri üzrə ədalət mühakiməsinin aparılacağı dil seçilməmiş, təqsirləndirilən şəxslər barəsində seçilmiş qətimkan tədbirlərinə münasibət bildirilməmiş, həmçinin vəkillərin müdafiəçi qismində işə buraxılması məhkəmə qərarları ilə rəsmiləşdirilməmişdir. Başqa sözlə onların müdafiə sahəsində həyata keçirdikləri prosessual fəaliyyət məhkəmə qərarları ilə tanınmamışdır.

Cinayət prosessual qanunvericiliyinin cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyindən bəhs edən 51-ci maddəsinin tələbləri öyrənilmiş, cinayət işlərinin təxminən hər ikisindən biri üzrə həmin maddənin tələbləri pozulmuşdur. Məsələn, hakim M.Şirvanovun sədrliyi ilə baxılmış 15/14, 61/14, 23/15, 47/15, 77/15, 1/16, 3/16, 7/16, 9/16, 11/16, 15/16 və 19/16 nömrəli cinayət işləri üzrə müvafiq olaraq: 01.10.2014-cü, 04.03.2015-ci, 27.04.2015-ci, 29.06.2015-ci, 09.09.2015-ci, 29.10.2015-ci,16.11.2015-ci, 16.11.2015-ci, 17.11.2015-ci, 07.01.2016-cı və 15.01.2016-cı il tarixlərdə

“Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında” qərarlar çıxarılmasına baxmayaraq 03.02.2016-cı il tarixə kimi ötən 15 gün-1 il 4 aydan artıq müddət ərzində məhkəmənin hazırlıq iclaslarının protokolları tərtib olunmamış və imzalanmamışdır.

Hakim M.Şirvanovun sədrliyi ilə 1-16 nömrəli cinayət işi üzrə 12.03.2015-ci, 25.05.2015-ci, 02.06.2015-ci və 30.12.2015-ci il tarixlərdə “Təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi haqqında” qərarlar çıxarılmasına baxmayaraq cinayət təqibi üzrə aparılan bu prosessual hərəkətlərin gedişi və nəticələri protokollarda əks olunmamışdır. Qeyd edilən bu qərarlarda məhkəmə iclas katibinin iştirakı ümumiyyətlə göstərilməmişdir.

Bundan əlavə, 23.10.2015-ci il tarixdə təqsirləndirilən şəxs M.Quliyev barəsində həbs qətimkan tədbiri seçilməsi və axtarış elan edilməsi haqqında qərar qəbul olunmasına baxmayaraq, həmin prosessual hərəkətin də gedişi və nəticələri ilə bağlı məhkəmə iclas protokolu tərtib olunmamışdır.

Məhkəmə baxışlarının çoxsaylı iclas protokolları, o cümlədən: 77/15 nömrəli cinayət işi üzrə 23.11.2015-ci və 25.12.2015-ci il tarixli, 1-16 nömrəli cinayət işi üzrə 27.04.2015-ci il tarixli, 3-16 nömrəli cinayət işi üzrə 13.08.2015-ci, 14.10.2015-ci və 19.10.2015-ci il tarixli, 7-16 nömrəli cinayət işi üzrə 02.11.2015-ci, 16.11.2015-ci, 23.11.2015-ci, 14.12.2015-ci və 21.12.2015-ci il tarixli, 9-16 nömrəli cinayət işi üzrə 23.11.2015-ci il tarixli, 11/16 nömrəli cinayət işi üzrə 23.11.2015-ci, 27.11.2015-ci və 07.12.2015-ci il tarixli, 23/15 nömrəli cinayət işi üzrə 04.03.2015-ci, 11.03.2015-ci və 20.05.2015-ci il tarixli, 77/15 nömrəli cinayət işi üzrə 23.12.2015-ci və 25.12.2015-ci il tarixli protokolları 03.02.2016-cı il tarixə kimi ötən 1 - 10 aydan artıq müddət ərzində tərtib olunmamışdır. Bu kimi hallar ədalət mühakiməsinin həyata keçirilməsinə mənfi təsir göstərməklə yanaşı, proses tərəflərinin protokollar ilə tanış olmaq imkanlarını və hüquqlarını məhdudlaşdırmışdır.

Cinayət Prosessual Məcəllənin şahidin dindirilməsindən bəhs edən 328.5-ci maddəsinin tələblərinə zidd olaraq 15/14, 61/14, 27/15, 35/15, 39/15, 45/15, 47/15, 53/15, 87/15 nömrəli və digər cinayət işlərinin məhkəmə baxışlarında sədrlik edən hakim M.Şirvanov şahidin (təqsirləndirilən şəxslər istisna olmaqla) zərərçəkmiş şəxslərə, mülki iddiaçıya, mülki cavabdehə, həmçinin icraatda iştirak edən digər şəxslərə münasibətlərini aydınlaşdırmamışdır.

Hakim M.Şirvanovun sədrliyi ilə 15/14, 61/14, 23/15, 27/15, 35/15, 39/15, 45/15, 47/15, 53/15, 77/15, 87/15 və 1/16 nömrəli cinayət işləri üzrə

müvafiq olaraq: 05.02.2014-cü, 20.04.2015-ci, 22.04.2015-ci, 25.06.2015-ci, 06.08.2015-ci, 12.08.2015-ci, 17.10.2015-ci, 25.11.2015-ci, 05.12.2015-ci, 25.12.2015-ci və 15.01.2016-cı il tarixlərdə ittiham hökmləri çıxarılarkən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.2-ci maddəsinin tələbləri pozularaq müsadirə edilməli əmlakların olub-olmaması məsələsi həll edilməmişdir. Eyni pozuntulara digər işlər üzrə də yol verilmişdir.

Hakim M.Şirvanovun sədrliyi ilə baxılmış inzibati xəta haqqında işlər üzrə də qanun pozuntularına yol verilmişdir. Məsələn, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 427-ci maddəsinin tələbləri pozularaq hakim M.Şirvanovun sədrliyi ilə 21 (183/15, 217/15, 221/15, 233/15, 277/15, 279/15, 281/15, 283/15, 303/15, 305/15, 339/15, 351/15 371/15, 433/15, 507/15, 525/15, 543/15, 547/15, 551/15, 571/15 və 587/15 nömrəli) iş üzrə çıxarılmış qərarların surətləri aidiyyəti şəxslərə verilməmişdir. Bu qərarların icraya yönəldilməsinə dair də həmin işlərdə heç bir sübutedici sənəd olmamışdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 426.4-cü maddəsinin (inzibati xəta haqqında iş üzrə qərar onu qəbul etmiş hakim tərəfindən imzalanır) tələblərinə zidd olaraq 525/15, 543/15 və 551/15 nömrəli işlər üzrə qəbul edilmiş qərarlar hakim M.Şirvanov tərəfindən ötən müddət ərzində imzalanmamışdır.

İnzibati Xətalar Məcəlləsinin işlərə baxılması müddətlərindən bəhs edən 422-ci maddəsinin tələbləri (hakim inzibati xəta haqqında protokolu və işin digər materiallarını aldığı vaxtdan 15 gün müddətində baxmalıdır) pozularaq N.Həsənəliyev və M.Nəzərov barəsində məhkəmədə 08.12.2015-ci il tarixdə qeydə alınmış 567/15 və 569/15 nömrəli inzibati xəta haqqında işlər üzrə 02.02.2016-cı il tarixədək ötən 1 ay 20 gündən çox müddət ərzində hakim M.Şirvanov heç bir qərar qəbul etməmişdir. Nəticədə inzibati xətalar haqqında işlərə baxılması müddətləri pozulmuşdur.

Hakim M.Şirvanovun sədrliyi ilə baxılmış işlər üzrə müvafiq olaraq 14.05.2015, 20.05.2015-ci, 27.05.2015, 02.06.2015, 09.07.2015, 14.07.2015, 12.08.2015, 13.08.2015, 06.10.2015, 17.10.2015, 02.11.2015, 06.11.2015, 07.11.2015, 19.11.2015, 23.11.2015, 07.12.2015 və 22.12.2015-ci il tarixlərdə çıxarılmış qərarlarda iclas katibi kimi Y.Əliyevin iştirak etməsi göstərilməsinə baxmayaraq onların heç biri üzrə, 02.02.2016-cı il tarixə kimi ötən 1-8 aydan artıq müddət ərzində məhkəmə iclas protokolları tərtib olunmamışdır.

Müəyyən edilmişdir ki, 4(020) indeksi ilə qeydə alınmış 31/15, 37/15, 45/15, 47/15, 53/15, 55/15 və 57/15 nömrəli materiallar üzrə hakim

M.Şirvanovun sədrliyi ilə təqsirləndirilən şəxs haqqında həbs qətimkan tədbirinin seçilməsi, uzadılması və ya ev dustaqlığı ilə əvəz edilməsi barədə 16.01.2015-ci, 14.08.2015-ci, 26.08.2015-ci, 27.10.2015-ci, 16.11.2015-ci və 10.12.2015-ci il tarixli qərarlar çıxarılmasına baxmayaraq, həmin işlərin heç biri üzrə 02.02.2016-cı il tarixədək ötən 1-12 aydan artıq müddət ərzində məhkəmə iclas protokolları tərtib olunmamışdır (iclaslarda katib kimi hakim köməkçisi Y.Əliyev iştirak etmişdir). Bu qərarların heç birində işlərin "qapalı" məhkəmə iclasında baxılması da göstərilməmişdir.

Qeyd edilənlər ilə yanaşı Beyləqan Rayon Məhkəməsində "Azərbaycan Respublikası məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın tələbləri pozularaq daxil olmuş işlərin hakimlər arasında bölgüsünün təşkil edilməsi üçün hakimlərin kodlaşdırılması həyata keçirilməmişdir. Sədrin iştirak edəcəyi dövriyyə müəyyən olunmamış, işlərin bölgüsünə dair gündəlik nəzarət cədvəlləri ümumiyyətlə tərtib edilməmişdir. Həmçinin məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində ciddi nöqsanlar aşkar edilmişdir. Yalnız 2015-ci ildə Beyləqan Rayon Məhkəməsində 3 mindən çox iş və ya materiala baxılmasına, əvvəlki illərlə müqayisədə iş həcminin artmasına, hüquq normalarının düzgün tətbiq edilməməsi sahəsində ciddi problemlər olmasına baxmayaraq bu və digər məsələlər üzrə məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə əhəmiyyət verilməmişdir.

Bundan əlavə Beyləqan Rayon Məhkəməsində "Azərbaycan Respublikası məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"da nəzərdə tutulmuş bəzi (4, 8, 9, 56, 58 və s. saylı əlavə üzrə) qovluqlar ümumiyyətlə yaradılmamış, məhkəmə aparatı işinin təşkilinə, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə dair (həmçinin digər çoxsaylı) qovluqlar isə məhkəmənin dəftərxanasında lüzumsuz, boş qovluqlar kimi saxlanılmışdır. Təlimatın 12 nömrəli əlavəsinə zidd olaraq məhkəmənin dəftərxanasında "Yetkinlik yaşına çatmayan", "Həbsdədir" adlı qeydiyyat ştampları olmamışdır. Bu ştampların olmaması Təlimatın həmin ştampların vurulması göstərişi olan müvafiq bəndlərinin pozulmasına dəlalət edir.

Beyləqan Rayon Məhkəməsində həmçinin Təlimatın 417, 430, 437 və 438-ci bəndlərinin tələbinə əməl olunmayaraq işlərin (materialların) ümumi nomenklatur siyahısı tərtib olunmamış, arxiv işi üzrə daimi fəaliyyət göstərən ekspert komissiyası yaradılmamış, məhkəmə sənədlərinin ekspertizası keçirilməmiş, işlərin üzərinə müvafiq ("Arxivə") ştamp vurulmamış və arxiv nömrələri verilməmişdir. Məhkəmə üzrə öyrənilmiş

394 iş və materialın təxminən hər üçündən ikisi üzrə məhkəmə sənədləri (hökmlər, qətnamələr, qərardadlar, qərarlar, məhkəmə iclasının protokolları, iltizamlar, qəbzlər və digər sənədlər) xronoloji ardıcıllıqla tikilməmiş, vərəqlər üzrə səhifələnməmiş, mündəricat tərtib olunmamışdır. Onlar iş materillarında pərakəndə şəkildə, qarışıq vəziyyətdə, lüzumsuz sənədlər kimi saxlanılmışdır.

Yuxarıda qeyd edilən hərəkətləri ilə Beyləqan Rayon Məhkəməsinin sədri Maşalla Şirvanov işlərə baxarkən xidməti vəzifələrinin icrasına laqeyd münasibət bəsləmiş, məhkəmədə işin təşkilini və məhkəmə aparatının işinə rəhbərliyi lazımi səviyyədə həyata keçirməmiş, icraatında olmuş işlər və materiallar üzrə prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol verməklə əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərini pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının 12 iyul 2016-cı il tarixli qərarından aydın olur ki, Beyləqan Rayon Məhkəməsində icra və əmək intizamına riayət edilməsi vəziyyəti öyrənilərkən hakim Əliyev Nəsrullah İbadullah oğlu tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı qanunvericiliyin tələblərinin pozulması müəyyən edilmişdir.

İntizam icraatı başlanılması barədə müraciətə əlavə edilmiş sənədlər araşdırılarkən müəyyən edilmişdir ki, hakim Nəsrullah Əliyev icraatında olmuş işlər və materiallar üzrə prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermişdir.

Belə ki, hakim Nəsrullah Əliyev öyrənilmiş 71 mülki işin təxminən hər üçündən ikisi üzrə "işin məhkəmədə baxılmağa hazırlanması haqqında qərardadlar"ı ümumiyyətlə tərtib etməmişdir. Bu kimi halların nəticəsində hakim N.Əliyev məhkəmə araşdırmalarının aparılmasına, işlərin mahiyyəti üzrə baxılmasına və qətnamə qəbul edilməsinə yönələn zəruri hərəkətləri etməmişdir.

Hakim N.Əliyev Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin işin məhkəmə baxışına təyin edilməsindən bəhs edən 171-ci maddəsinin tələblərinə zidd olaraq öyrənilmiş 71 mülki işin 42-si və ya təxminən hər üçündən ikisi üzrə, 02.02.2016-cı il tarixə kimi ötən 2 ay - 2 ildən artıq müddət ərzində, müstəqil akt şəklində "işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərardad çıxarmamışdır. Buna baxmayaraq, həmin işlərin həllinə dair yekun məhkəmə aktları (qətnamə və ya qərardadlar) qəbul etmişdir.

Bundan əlavə, Mülki Prosessual Məcəllənin 263-cü maddəsinin tələbləri pozularaq, 1162/14, 232/15 və 340/15 nömrəli mülki işlər üzrə "İşin

məhkəmədə baxılmağa hazırlanması haqqında”, həmçinin “İşin məhkəmə baxışına təyin edilməsi haqqında” qərardadlar hakim N.Əliyev tərəfindən 02.02.2016-cı il tarixə kimi ötən müddət ərzində imzalanmamışdır.

Mülki Prosessual Məcəllənin (387.2.7 və 387.3-cü maddələr) işdə məhkəmə iclasının protokolunun olmamasını və ya imzalanmamasını prosessual normaların kobud pozulması kimi qiymətləndirməsinə baxmayaraq, hakim N.Əliyevin sədrliyi ilə baxılmış 71 mülki işin təxminən hər üçündən ikisi üzrə Məcəllənin protokolun tərtib edilməsinin məcburiliyindən bəhs edən 270-272-ci maddələrinin tələbləri kobud şəkildə pozulmuşdur. Məsələn, məhkəmədə 11.12.2014-cü il tarixdə qeydə alınmış 1734/14 nömrəli mülki iş üzrə 26.12.2014-cü il tarixli hazırlıq iclasının protokolu 1 ildən artıq müddət ərzində tərtib olunmamışdır.

Hakim N.Əliyevin sədrliyi ilə baxılmış 37 mülki iş üzrə, müvafiq olaraq: 28.08.2014-cü, 31.03.2015-ci, 13.04.2015-ci, 14.08.2015-ci, 19.08.2015-ci, 14.09.2015-ci, 15.09.2015-ci, 21.09.2015-ci, 25.09.2015-ci, 29.09.2015-ci, 12.10.2015-ci, 13.10.2015-ci, 14.10.2015-ci, 27.10.2015-ci, 02.11.2015-ci, 21.10.2015-ci, 26.11.2015-ci, 04.12.2015-ci, 17.12.2015-ci, 18.12.2015-ci il və digər tarixlərdə yekun məhkəmə aktları (qətnamə və qərardadlar) çıxarılmasına, həmçinin qanuni qüvvəyə minmiş məhkəmə qətnamələrinin icraya yönəldilməsinə baxmayaraq 02.02.2016-cı il tarixə kimi ötən 1 ay - 1 il 5 aydan artıq müddət ərzində onların heç biri üzrə məhkəmə iclas protokolları tərtib olunmamışdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 272.7-ci maddəsinin tələblərinə zidd olaraq 232/14, 340/14, 348/14 və 1162/14 nömrəli mülki işlər üzrə müvafiq olaraq: 07.02.2014-cü, 28.02.2014-cü, 03.03.2014-cü, 17.03.2014-cü, 27.03.2014-cü, 27.08.2014-cü, 16.10.2014-cü, 30.10.2014-cü və 27.04.2015-ci il tarixli iclas protokolları 02.02.2016-cı il tarixə kimi ötən müddət ərzində hakim N.Əliyev (bir çox hallarda həm də iclas katibi Ə.Əliyev) tərəfindən imzalanmamışdır.

Bəzi hallarda qərardadlarla protokolların məzmunları ziddiyyətli olmuşdur. Məsələn, 2188/15 nömrəli mülki iş (X.Süleymanovun alimentin azaldılmasına dair ərizəsi) üzrə protokolun əlyazmasında iddiaçının məhkəmə prosesinə gəldiyi və məhkəmə çıxışlarında çıxış etməsi göstərildiyi halda, 24.12.2015-ci il tarixli qərardad ilə ərizə “onun məhkəmə çağrışına gəlməməsi səbəbinə görə” baxılmamış saxlanılmışdır. Eyni nöqsanlara 976/15 və 270/15 nömrəli mülki işlər üzrə də yol verilmişdir.

Hakim N.Əliyev qətnamələrin tərtibi və imzalanmasında da nöqsan və pozuntulara yol vermişdir. Məsələn, Mülki Prosessual Məcəllənin 219.2-ci

maddəsinin (məhkəmənin qətnaməsi işə təkbaşına baxdıqda hakim tərəfindən imzalanır) tələblərinə zidd olaraq 1712/15 nömrəli mülki iş üzrə hakim N.Əliyevin sədrliyi ilə 04.12.2015-ci il tarixdə çıxarılmış qətnamə 02.02.2016-cı il tarixə kimi ötən 1 ay 27 gündən artıq müddət ərzində imzalanmamışdır.

1752/14 nömrəli mülki iş üzrə 14.01.2015-ci il tarixdə hakim N.Əliyevin sədrliyi ilə çıxarılmış 14.01.2015-ci il tarixli qətnamə ilə S.Əliyevanın sosial sığorta stajının müəyyən edilməsinə dair ərizəsi təmin edilmiş və həmin qətnamədən Dövlət Sosial Müdafiə Fondu tərəfindən apellyasiya şikayəti verilmişdir. Apellyasiya şikayətinin daxil olmasından 6 gün əvvəl hakim N.Əliyev Mülki Prosessual Məcəllənin qətnamədəki yanlışlıqların və ya açıq hesab səhvlərinin düzəldilməsindən bəhs edən 228-ci maddəsinin tələblərini pozaraq, apellyasiya instansiya məhkəməsinin funksiyasını öz üzərinə götürməklə 02.06.2015-ci il tarixli qərardadla həmin qətnamədəki "təmin" sözlərini, "təmin edilməsin" sözləri ilə əvəz etmişdir.

Mülki prosessual qanunvericiliyin məhkəmə əmrinin çıxarılması qaydasından bəhs edən 280-ci maddəsinin (məhkəmə əmri, irəli sürülmüş tələb məhkəməyə daxil olan gündən 3 gün ərzində çıxarılır) tələblərinə zidd olaraq məhkəmədə müvafiq olaraq: 16.10.2015-ci, 11.11.2015-ci, 12.11.2015-ci, 23.11.2015-ci, 27.11.2015-ci, 01.12.2015-ci, 08.12.2015-ci, 14.12.2015-ci, 15.12.2015-ci, 16.12.2015-ci və 11.01.2016-cı il tarixlərdə qeydə alınmış 35 mülki iş üzrə 02.02.2016-cı il tarixə kimi ötən 20 gün- 3 aydan artıq müddət ərzində hakim N.Əliyev tərəfindən məhkəmə əmrləri çıxarılmamışdır.

Mülki Prosessual Məcəllənin qətnamənin tərtibindən bəhs edən 227.3-cü maddəsinin (məhkəmənin qətnaməsi işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməlidir) tələblərinə baxmayaraq hakim N.Əliyevin sədrliyi ilə baxılmış 23 mülki iş üzrə, müvafiq olaraq: 14.08.2015-ci, 19.08.2015-ci, 14.09.2015-ci, 15.09.2015-ci, 25.09.2015-ci, 29.09.2015-ci, 13.10.2015-ci, 14.10.2015-ci, 21.10.2015-ci, 27.10.2015-ci, 02.11.2015-ci, 26.11.2015-ci, 04.12.2015-ci, 17.12.2015-ci və 18.12.2015-ci il tarixlərdə çıxarılmış qətnamələrin surətləri 02.02.2016-cı il tarixə kimi ötən 1-5 aydan artıq müddət ərzində işdə iştirak edən şəxslərə təqdim edilməmişdir.

Öyrənilmiş mülki işlərin təxminən hər üçündən ikisi xronoloji ardıcıllıqla tikilməmiş, səhifələnməmiş, mündəricat tərtib olunmamışdır. Məhkəmə sənədləri (qətnamələr, qərardadlar, məhkəmə iclas protokolları və digər

sənədlər) isə iş materillarında pərakəndə şəkildə saxlanılmışdır. Hakim N.Əliyev həmin məsələlərə ümumiyyətlə nəzarət etməmişdir.

Müəyyən edilmişdir ki, Beyləqan Rayon Məhkəməsinin hakimi N.Əliyevin sədrliyi ilə ədalət mühakiməsi həyata keçirilərkən cinayət prosessual qanunvericiliyin tələbləri də kütləvi şəkildə pozulmuşdur. Məsələn, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 298.2.1-ci maddəsinin tələbləri (məhkəmənin hazırlıq iclası cinayət işi məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində təmin edilir) pozularaq, müddətin uzadılmasına dair müvafiq qərar olmadan "Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərar hakim N.Əliyev tərəfindən 22/15, 24/15, 28/15, 62/15 və 87/15 nömrəli cinayət işləri üzrə müvafiq olaraq: 1 ay 11 gün, 26 gün, 25 gün, 22 gün və 17 gün sonra qəbul edilmişdir.

Hakim N.Əliyevin sədrliyi ilə baxılmış cinayət işləri üzrə Cinayət Prosessual Məcəllənin məhkəmə baxışının təyin edilməsindən bəhs edən 301.2-ci maddəsinin tələbləri də kütləvi şəkildə pozulmuşdur. Belə ki, həmin maddənin (təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarda digər məsələlər ilə yanaşı təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması da göstərilməlidir) tələblərinə baxmayaraq 61/14, 23/15, 24/15, 35/15, 53/15 və 87/15 nömrəli cinayət işləri üzrə hakim N.Əliyevin sədrliyi ilə, müvafiq olaraq: 01.10.2014-cü, 16.03.2015-ci, 04.03.2015-ci, 30.03.2015-ci və 06.08.2015-ci il tarixlərdə çıxarılmış "Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərarların heç birində təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması göstərilməmişdir. Nəticədə, vəkillərin müdafiəçi qismində işə buraxılması məhkəmə qərarları ilə rəsmiləşdirilməmiş və onların müdafiə sahəsində həyata keçirdikləri prosessual fəaliyyət məhkəmə qərarları ilə tanınmamışdır.

Bundan əlavə, 61/15 nömrəli cinayət işi üzrə "Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında" 28.09.2015-ci il tarixli qərar hakim N.Əliyev tərəfindən 4 aydan artıq müddət ərzində tərtib olunmamışdır. Hazırlıq mərhələsi keçirilmədən isə həmin iş üzrə 25.12.2015-ci il tarixdə hökm çıxarılmışdır.

Cinayət Prosessual Məcəllənin cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyindən bəhs edən 51-ci və məhkəmə iclasının katibi barədə 98-ci maddələrinin tələbləri kobudcasına pozularaq öyrənilmiş 33 cinayət işi üzrə

hazırlıq iclaslarının və məhkəmə baxışlarının protokolları 02.02.2016-cı il tarixə kimi ötən 1 ay - 2 ildən artıq müddət ərzində tərtib olunmamışdır.

Hakim N.Əliyevin sədrliyi ilə 44/15, 54/15, 52/15, 74/15, 16/15 və 87/15 nömrəli cinayət işləri üzrə müvafiq olaraq: 21.07.2015-ci, 12.08.2015-ci, 20.08.2015-ci, 28.08.2015-ci, 09.09.2015-ci, 08.10.2015-ci, 22.10.2015-ci, 19.05.2015-ci, 16.04.2015-ci, 21.01.2015-ci və 11.12.2015-ci il tarixlərdə "Təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi haqqında" qərarlar çıxarılmasına baxmayaraq cinayət təqibi üzrə aparılan bu prosessual hərəkətlərin də gedişi və nəticələri protokollarda əks olunmamışdır. Qeyd edilən qərarlarda məhkəmə iclas katibinin iştirakı ümumiyyətlə göstərilməmişdir.

Bundan əlavə, hakim N.Əliyevin sədrliyi ilə baxılmış 24/15 nömrəli cinayət işi üzrə təqsirləndirilən şəxsin barəsində axtarış elan edilməsinə, qətimkan tədbirinin dəyişdirilməsinə, həmçinin cinayət işinin icraatının dayandırılmasına dair müvafiq olaraq: 16.04.2015-ci və 28.07.2015-ci il tarixlərdə qərarlar çıxarılmasına baxmayaraq cinayət təqibi üzrə aparılan bu prosessual hərəkətlərin də gedişi və nəticələri məhkəmə iclas protokollarında əks olunmamışdır.

Öyrənilmiş 33 cinayət işi üzrə məhkəmə baxışının 100-dən çox iclas protokolları 02.02.2016-cı il tarixə kimi ötən müddət ərzində tərtib olunmamışdır. Məsələn, 22/15 nömrəli cinayət işi üzrə məhkəmə baxışının 02.03.2015-ci, 04.03.2015-ci, 16.03.2015-ci, 01.04.2015-ci və 30.04.2015-ci; 23/15 nömrəli cinayət işi üzrə 04.03.2015-ci, 11.03.2015-ci və 20.05.2015-ci; 24/15 nömrəli cinayət işi üzrə 14.04.2014-cü, 30.04.2014-cü, 05.05.2014-cü, 19.05.2014-cü, 21.05.2014-cü, 04.06.2014-cü, 05.06.2014-cü, 18.06.2014-cü, 13.10.2014-cü, 15.10.2014-cü, 03.11.2014-cü və 05.11.2014-cü; 28/15 nömrəli cinayət işi üzrə 19.03.2015-ci, 01.04.2015-ci, 16.04.2015-ci, 23.04.2015-ci, 27.04.2015-ci, 20.05.2015-ci, 01.06.2015-ci, 27.07.2015-ci və 04.09.2015-ci; 30/15 nömrəli cinayət işi üzrə 15.03.2015-ci, 16.03.2015-ci, 08.04.2015-ci, 13.04.2015-ci və 16.04.2015-ci; 34/15 nömrəli cinayət işi üzrə 01.04.2015-ci, 06.04.2015-ci, 16.04.2015-ci və 14.05.2015-ci, 52/15 nömrəli cinayət işi üzrə 21.07.2015-ci,12.08.2015-ci, 28.08.2015-ci, 09.09.2015-ci və 10.09.2015-ci il tarixli iclas protokolları 02.02.2016-cı il tarixə kimi ötən uzun (bəzi hallarda bir ildən çox) müddət ərzində tərtib olunmamışdır. Nəticədə, Cinayət Prosessual Məcəllənin 51.7-ci (məhkəmə iclasının protokolu məhkəmə iclasında sədrlik edən və məhkəmə iclasının katibi tərəfindən məhkəmə iclası qurtardıqdan sonra 3 gün müddətində imzalanmalıdır) maddəsinin tələbləri kobud şəkildə pozulmuş-

dur. Bundan əlavə, həmin hallar ilə proses tərəflərinin protokollarla tanış olmaq imkanları və ya hüquqları da məhdudlaşdırılmışdır.

Cinayət Prosessual Məcəllənin şahidin dindirilməsindən bəhs edən 328.5-ci maddəsinin tələblərinə (məhkəmə iclasında sədrlik edən şahidin təqsirləndirilən, zərərçəkmiş şəxsə, mülki iddiaçıya, mülki cavabdehə və icraatda iştirak edən digər şəxslərə münasibətini aydınlaşdırır və baxılan ittihamla əlaqədar məlum olanlar barədə ifadə verməyi təklif edir) zidd olaraq 61/14, 23/15, 24/15, 35/15, 53/15, 87/15 nömrəli və digər cinayət işlərinin məhkəmə baxışlarında sədrlik edən hakim N.Əliyev dindirilmiş şahidlərin (təqsirləndirilən şəxslər istisna olmaqla) zərərçəkmiş şəxsə, mülki iddiaçıya, mülki cavabdehə və icraatda iştirak edən digər şəxslərə münasibətləri aydınlaşdırılmamışdır.

Hakim N.Əliyev hökmlərin tərtib edilməsində də nöqsan və pozuntulara yol verərək qanunvericiliyin tələblərini pozmuşdur. Məsələn, hakim N.Əliyevin sədrliyi ilə ittiham hökmləri çıxarılarkən (o cümlədən: 24/14, 54/14, 61/14, 49/14, 52/14, 63/14, 78/14, 80/14, 16/15, 22/15, 23/15, 24/15, 28/15, 30/15, 32/15, 34/15, 35/15, 44/15, 50/15, 52/15, 53/15, 59/15, 60/15, 61/15, 68/15, 70/14, 74/15, 76/15 və 87/15 nömrəli işlər üzrə) Cinayət Məcəlləsinin 99-1.2-ci maddəsinin tələblərinə zidd olaraq müsadirə edilməli əmlakın olub-olmaması məsələsi həll edilməmişdir.

Cinayət Prosessual Məcəllənin cinayət təqibi üzrə icraatın materiallarından bəhs edən 52-ci maddəsinin tələbləri (sənədlər, habelə cinayət prosesi tərəflərinin yazılı müraciətləri müvafiq olaraq cinayət işinin materiallarında saxlanılır. Hər bir sənəd müvafiq olaraq cinayət işinin materialına əlavə olunan kimi dərhal vərəqlər üzrə nömrələnməlidir. Cinayət prosesini həyata keçirən orqan həmin vərəqlərin ardıcıl nömrələnməsini və xronoloji qaydada müvafiq olaraq cinayət işinin materiallarına tikilməsini təmin etməlidir.) də çoxsaylı işlər üzrə pozulmuşdur. Məsələn, öyrənilmiş 33 cinayət işi üzrə, hakim N.Əliyevin sədrliyi ilə müvafiq olaraq: 07.01.2014-cü, 05.11.2014-cü, 29.12.2014-cü, 16.04.2015-ci, 20.04.2015-ci, 24.04.2015-ci, 29.04.2015-ci, 30.04.2015-ci,14.05.2015-ci, 29.05.2015-ci, 17.06.2015-ci, 16.07.2015-ci, 12.08.2015-ci, 04.09.2015-ci, 30.09.2015-ci, 10.09.2015-ci, 25.11.2015-ci, 25.12.2015-ci il və digər tarixlərdə çıxarılmış yekun qərarlar (hökm və ya qərarlar) qanuni qüvvəyə minməsinə baxmayaraq onlardan 29-u üzrə məhkəmə sənədləri, o cümlədən hökmlər, qərarlar, iclas protokolları, iltizamlar, qəbzlər, məhkəmə bildirişləri və digər sənədlər 02.02.2016-cı il tarixə kimi ötən uzun (bəzi hallarda 1 ildən artıq) müddət ərzində nömrələnməmiş, xronoloji qaydada cinayət işinin materiallarına tikilməmiş

və mündəricat tərtib olunmamışdır. Onlar işlərdə pərakəndə şəkildə, lüzumsuz sənəd kimi saxlanılmışdır. Hakimin nəzarətsizliyi nəticəsində çoxsaylı məhkəmə bildirişlərində, çağırış vərəqlərində, qəbzlərdə və iltizamlarda tarixlər də yazılmamışdır. Bu kimi hallar məhkəmə sənədlərinin tarixlərinin təhrif edilməsinə şərait yaratmışdır.

Bir çox hallarda Cinayət Prosessual Məcəllənin hökmlərin icrası barədə dərhal göstəriş verilməsindən bəhs edən 506 və 507-ci maddələrinin tələbləri dəqiq yerinə yetirilməmişdir. Məsələn, M.Mustafayev barəsindəki 29.05.2015-ci il tarixli hökm onun qanuni qüvvəyə mindiyi vaxtdan 7 ay, K.Rüstəmov barəsindəki 30.10.2015-ci il tarixli hökm- 2 ay, D.Fərzəliyev barəsindəki 17.06.2015-ci il tarixli hökm-1 ay, V.Mütəllimov barəsindəki 25.12.2014-cü il tarixli hökm-1 ay, F.Cəfərov barəsindəki 29.12.2015-ci il tarixli hökm- 1 ay, N.Mirzəyev barəsindəki 25.11.2015-ci il tarixli hökm-1 ay, R.Rüstəmov barəsindəki 14.10.2015-ci il tarixli hökm-1 ay sonra icra üçün Beyləqan rayon İcra bölməsinə təqdim olunmuşdur.

Hakim N.Əliyevin sədrliyi ilə baxılmış inzibati xəta haqqında işlər üzrə də qanun pozuntularına yol verilmişdir. Məsələn, İnzibati Xətalar Məcəlləsinin 426.4-cü maddəsinin (inzibati xəta haqqında iş üzrə qərar onu qəbul etmiş hakim tərəfindən imzalanır) tələblərinə zidd olaraq 380/15 nömrəli iş üzrə qəbul edilmiş 19.08.2015-ci il tarixli qərar hakim N.Əliyev tərəfindən 02.02.2016-cı il tarixə kimi ötən 5 aydan çox müddət ərzində imzalanmamışdır. Bundan əlavə 160/15, 252/15 və 382/15 nömrəli inzibati xəta haqqında işlər üzrə 24.08.2015-ci, 13.04.2015-ci və 03.06.2015-ci il tarixlərdə tərtib olunmuş iclas protokolları 02.02.2016-cı il tarixə kimi ötən 5–9 aydan çox müddət ərzində məhkəmə iclasının katibi Ə.Əliyev tərəfindən imzalanmamışdır.

Hakim N.Əliyevin sədrliyi ilə baxılmış, inzibati xəta haqqında 19 iş üzrə, müvafiq olaraq 16.01.2015-ci, 06.02.2015-ci, 12.02.2015-ci, 13.02.2015-ci, 16.02.2015-ci, 13.03.2015-ci, 30.03.2015-ci, 10.04.2015-ci, 13.04.2015-ci, 22.05.2015-ci, 11.06.2015-ci, 12.06.2015-ci və 06.10.2015-ci il tarixlərdə qəbul edilmiş qərarlar ilə lisenziyası olmadan alkoqollu içkilərin pərakəndə satışını həyata keçirən 19 nəfər fiziki şəxs (cəmi 820 manat məbləğində) cərimə olunmasına baxmayaraq hakimin nəzarətsizliyi nəticəsində 02.02.2016-cı il tarixə kimi ötən 3 – 12 aydan artıq müddət ərzində həmin qərarlar icraya yönəldilməmişdir.

Həmçinin İnzibati Xətalar Məcəlləsinin iş üzrə qərarın elan edilməsindən bəhs edən 427-ci maddəsinin (inzibati xəta haqqında iş üzrə qərarın surəti 3 gün müddətində barəsində qərar qəbul edilmiş fiziki şəxsə verilir) tələbləri

pozularaq 36/15, 70/15, 74/15, 78/15, 80/15, 86/15, 92/15, 118/15, 144/15 156/15, 158/15, 160/15, 164/15, 182/15, 202/15, 236/15, 242/15, 250/15, 448/15 nömrəli işlər üzrə çıxarılmış qərarların surətləri barəsində qərar qəbul edilmiş fiziki şəxslərə verilməmişdir.

Müəyyən edilmişdir ki, 5(020) indeksi ilə qeydə alınmış 14 (5/15, 14/15, 20/15, 35/15, 37/15, 39/15, 41/15, 43/15, 44/15, 45/15, 46/15, 47/15, 52/15, 58/15, 64/15 və 72/15 nömrəli) material üzrə, hakim N.Əliyevin sədrliyi ilə qapalı məhkəmə iclaslarında, müvafiq olaraq: 21.01.2015-ci, 03.04.2015-ci, 01.05.2015-ci, 10.07.2015-ci, 13.07.2015-ci, 28.07.2015-ci, 06.08.2015-ci, 14.08.2015-ci, 17.08.2015-ci, 25.08.2015-ci, 28.09.2015-ci, 02.10.2015-ci, 27.10.2015-ci, 09.11.2015-ci, 11.11.2015-ci, 23.11.2015-ci, 25.11.2015-ci, 26.11.2015-ci, 27.11.2015-ci, 15.12.2015-ci və 16.12.2015-ci il tarixlərdə istintaq hərəkətlərinin məcburi aparılması və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bağlı qərarlar çıxarılmasına baxmayaraq, 02.02.2016-cı il tarixə kimi ötən 1-12 aydan artıq müddət ərzində həmin materiallar üzrə də məhkəmə iclas protokolları tərtib olunmamışdır. Nəticədə, Cinayət Prosessual Məcəllənin cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyindən bəhs edən 51-ci və məhkəmə iclas katibinin vəzifələrinə aid 98-ci maddələrinin tələbləri kobud şəkildə pozulmuşdur. Qeyd edilən materiallar üzrə də sənədlər nömrələnməmiş, xronoloji qaydada tikilməmiş və mündəricat tərtib olunmamışdır. Aidiyyəti məhkəmə sənədləri bu işlərdə qarışıq və pərakəndə şəkildə saxlanılmışdır.

Hakim Nəsrullah Əliyev yuxarıda qeyd olunan hərəkətləri ilə məhkəmədə icraatında olmuş işlər və materiallar üzrə prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermişdir.

Beləliklə, Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında qeyd edilən pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.

**Aliment ödənilməsi barədə sazişin sosial-hüquqi mahiyyəti, ailə qanunvericiliyində yeri və təcrübi əhəmiyyəti**

Aliment latınca “alimentum” sözündən olub “qidalanma”, “yemək”, “saxlama” mənalarını ifadə edir. Aliment dedikdə, ər-arvadın, valideynlərin, uşaqların və ailənin başqa üzvlərinin saxlanılması və dolandırılması üçün qanunvericiliyə uyğun olaraq ödənilən vəsait başa düşülür.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin (bundan sonra - Ailə Məcəlləsi) beşinci bölməsi “ailə üzvlərinin aliment öhdəlikləri” adlanır və bu bölmə daxilində valideynlərin və uşaqların, ər-arvadın, eləcə də keçmiş ər-arvadın, habelə ailənin başqa üzvlərinin aliment öhdəlikləri, alimentin ödənilməsi barədə saziş, həmçinin alimentin ödənilməsi və tutulması qaydası ilə bağlı münasibətlər tənzimlənir.

Yazımızda Ailə Məcəlləsinin 16-cı fəslində (94-98-ci maddələr) nizama salınan “alimentin ödənilməsi barədə saziş”ə dair mülahizələrimizi oxucularla bölüşmək istərdik.

Ailə Məcəlləsinin 94-cü maddəsində aliment ödənilməsi barədə sazişin (alimentin miqdarı, ödənilmə qaydası və şərtləri) aliment ödəməli olan şəxslə onu alan şəxs arasında, aliment ödəməli olan və (və ya) onu alan şəxs fəaliyyət qabiliyyəti olmayan şəxs olduqda isə həmin şəxslərin qanuni nümayəndələri arasında bağlanması və tam fəaliyyət qabiliyyəti olmayan şəxslərin isə aliment ödənilməsi barədə sazişi özlərinin qanuni nümayəndələrinin razılığı ilə bağlaması müəyyən olunmuşdur.

Sözügedən maddədən belə nəticəyə gəlmək olur ki, aliment ödənilməsi barədə saziş alimentin miqdarı, ödənilmə qaydası və şərtlərini tənzimləyən mahiyyətcə mülki-hüquqi müqavilə formasıdır. Bu baxımdan hesab edirik ki, müqavilə hüququ haqqında müddəalar demək olar bu sazişə də şamil edilə bilər. Məsələyə bu aspektdən yanaşsaq, deməli, aliment ödənilməsi barədə saziş mülki müqavilənin elemetlərinə malikdir.

Aliment ödənilməsi barədə saziş (müqavilə) aliment ödəməli olan şəxslə onu alan şəxs arasında bağlanır. Qeyd edək ki, ailə qanunvericiliyinə əsasən haqqında söhbət açdığımız sazişin subyektləri valideynlər, əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlar, ər və ya arvad (keçmiş ər və ya arvad), habelə ailənin başqa üzvləri ola bilər. Bundan başqa, sazişdə gələ-

cəkdə doğulacaq uşaqların saxlanması barədə razılaşmaya dair müddəanın olması da mümkündür. Fikrimizcə, faktiki nikah münasibətlərində olan şəxslər, eləcə də uzaq qohumlar arasında da aliment ödənilməsi barədə saziş bağlanıla bilər. Çünki Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 390.1-ci maddəsinə görə *"Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər".*

Bundan başqa, Ailə Məcəlləsinin 5-ci maddəsi qanunun və hüququn analogiyasına yol verdiyindən bu cür sazişin bağlanması qanunazidd deyil.

Ailə Məcəlləsinin 94.2-ci maddəsində deyilir ki, "aliment ödənilməsi barədə saziş yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur[1]. Aliment ödənilməsi barədə sazişin qanunla müəyyən olunmuş formasına əməl edilməməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş nəticələrə səbəb olur". Mülki Məcəllənin 405.1-ci maddəsində belə bir göstəriş vardır ki, "tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır...". Bu maddəyə istinad edərək demək olar ki, sazişi bağlayan tərəflər sazişin forması və mühüm şərtləri, yəni alimentin miqdarı, ödənilmə qaydası və digər şərtlər barəsində razılığa gəldikdə və həmin saziş notariat qaydada təsdiq olunduqda aliment ödənilməsi barədə saziş bağlanılmış hesab olunur. Mülki Məcəllənin 329.1-ci maddəsində təsbit olunur ki, "Əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanılmış əqd etibarsızdır". Buradan aydın olur ki, yazılı formada bağlanmayıb notariat qaydasında təsdiq olunmayan aliment ödənilməsi barədə saziş bağlandığı andan əhəmiyyətsiz sayılaraq tərəflər üçün heç bir hüquq və vəzifə əmələ gətirmir. Ailə Məcəlləsinin 94.3-cü maddəsində müəyyən olunur ki, aliment ödənilməsi barədə saziş notariat qaydasında təsdiq edildikdə, icra vərəqəsi qüvvəsinə malik olur. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 6.1.3-cü maddəsindən də aydın olur ki, alimentlərin ödənilməsi barədə notariat qaydasında təsdiq edilmiş sazişlər icra sənədləri sayılır.

Mülki Məcəllənin 421.1-ci və Ailə Məcəlləsinin 95.2-ci maddələrinə əsasən tərəflərin qarşılıqlı razılığı əsasında müqavilə və ya aliment

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 329.2-ci maddəsində də göstərilir ki, "əqdlər şifahi və ya yazılı (sadə və ya notarial) formada bağlanır".

ödənilməsi barədə saziş dəyişdirilə və ya pozula bilər. Adı çəkilən maddələrin və Mülki Məcəllənin 430.1-ci maddəsinin tələblərinə uyğun olaraq buradan da belə nəticə çıxır ki, aliment ödənilməsi barədə saziş birtərəfli qaydada dəyişdirilə və ya pozula bilməz. Tərəflər arasında sazişin dəyişdirilməsi və ya pozulması barədə razılıq əldə oluna bilmirsə, onda bu barədə iddia ilə məhkəməyə müraciət edilə bilər. Lakin hər bir halda məhkəməyə iddia ilə müraciət etmək olmaz. Qanunvericiliyə müvafiq olaraq (Mülki Məcəllənin 423.2-ci maddəsi) dəyişdirilməsi və ya pozulması barədə təklif irəli sürmüş şəxs digər tərəfin imtina-rədd cavabını almalı və ya təklifdə göstərilən müddətdə, göstərilməyibsə, 30 gün müddətində cavab almamalıdır. Eyni zamanda, şəraitin, yəni ailə və maddi vəziyyətin əsaslı dəyişməsi də sazişin dəyişdirilməsinə və ya pozulmasına səbəb olur ki, bu halda da razılıq əldə oluna bilmədiyi təqdirdə məhkəməyə müraciət oluna bilər. Bu dəyişikliklər mühüm dəyişiklik olmalı və tərəflərin və ya onlardan hər hansı birinin mənafeyini əhəmiyyətli dərəcədə pozmalıdır. Aliment ödənilməsi barədə saziş məhkəmə qaydasında dəyişdirilərkən və ya pozularkən tərəflərin maraqları, mənafeləri və ya maddi şəraitləri xüsusilə diqqətə alınır, belə ki, bunlar tərəflərin maraqlarını və ya mənafelərini pozmamalıdır.

Ümumi qaydalara əməl edilməməsi əqdin etibarsızlığına səbəb olur. Sazişdə müəyyən edilmiş hüquqi nəticələrə səbəb olan şərtlər qeyri-qanunidirsə, və heç bir hüquqi nəticəyə səbəb olmursa, məhkəmədə iddia qaldırılmaqla saziş məhkəmə qaydasında etibarsız sayıla bilər. Azərbaycan Respublikasının mülki qanunvericiliyində əqdlərin etibarsızlığına dair müddəalar aliment ödənilməsi barədə sazişə tətbiq olunur. Müqayisə üçün qeyd edək ki, Rusiya Federasiyasının mülki qanunvericiliyinə əsasən etibarsız hesab edilən sazişə həm mübahisələndirilən, həm də əhəmiyyətsiz əqdlərin normaları şamil olunur və bir il ərzində həmin saziş mübahisələndirilə bilər.

Qanunvericilikdə aliment ödənilməsi barədə sazişin etibarsız hesab edilməsinin xüsusi bir əsası da göstərilmişdir. Belə ki, Ailə Məcəlləsinin 96.1-ci maddəsinə görə "alimentin ödənilməsi barədə sazişdə nəzərdə tutulan təminatın verilməsi şərtləri azyaşlı uşağın, yaxud yetkinlik yaşına çatan, lakin əmək qabiliyyəti olmayan ailə üzvünün maraqlarını pozursa, o cümlədən bu Məcəllənin 97.2-ci maddəsinin tələblərinə əməl edilmədikdə həmin saziş mübahisələndirilə bilər".

Alimentin miqdarı aliment ödənilməsi barədə sazişin əsas şərtlərindən biri olub tərəflərin razılığı ilə müəyyənləşdirilir. Alimentin miqdarı müəyyən olunarkən gəlirlərin həcmi və növləri, ödəyicinin payları və digər qa-

zancları araşdırılır. Alimentin miqdarı ya Ailə Məcəlləsinin 76-cı maddəsində göstərilən qaydada, ya sabit pul məbləği şəklində, ya da tərəflərin qarşılıqlı razılığı ilə istənilən məbləğdə müəyyən oluna bilər. Amma hər bir halda tərəflərin razılıq əsasında müəyyən etdikləri məbləğ qanunvericiliyə müvafiq olaraq məhkəmə tərəfindən müəyyən edilə bilən məbləğdən az olmamalıdır. Eyni zamanda məhkəmə təcrübəsində alimentin miqdarı müəyyən edilərkən "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının qanununun müddəaları da əsas götürülür. Məhkəmələr işə baxarkən müəyyən olunacaq aliment miqdarının yaşayış minimumundan az olmamasına diqqət yetirirlər.

Sazişdə alimentin miqdarının indeksasiyası qaydası da nəzərdə tutulur. Alimentin miqdarının indeksasiyası alimentin miqdarının inflyasiyadan qorunması məqsədilə həyata keçirilir və bununla da məbləğin dəyişdirilməsi ilə bağlı təkrar müraciət edilməsinin qarşısı alınır. Alimentin indeksasiyasının məqsədi alimentin məbləğinin aliment ödəyən şəxsin əmək haqqına və digər qazanclarına uyğunlaşdırılmasıdır. Aliment ödənilməsi barədə sazişdə indeksləşdirilmənin istənilən üsulu göstərilə bilər. Sazişdə alimentin miqdarı ilə yanaşı, müəyyənləşdirilmiş alimentin ödənilmə müddəti və ödənilmə mexanizmi göstərilməlidir. Rusiyada formalaşmış təcrübəyə əsasən aliment ödənilməsi barədə sazişdə qarşılıqlı razılıq əsasında müəyyən müddət müəyyənləşdirilmiş olur ki, bununla da tərəflər həmin müddət ərzində sazişin icrasına başlayırlar və bu müddəti ötürməyə görə tərəflər məsuliyyət daşıyır. Fikrimizcə, saziş bağlanılarkən bu cür müddət nəzərdə tutan müddəanın göstərilməsi daha məqsədəuyğundur. Çünki həmin müddətin verilməsi ilə şəxsin üzərinə birbaşa öhdəlik qoyulmuş olur. Həmçinin belə düşünürük ki, sazişdə aliment ödəyən şəxsin alimenti ödəmək imkanı olmadığı təqdirdə, tərəflərin hansı üsulla bu öhdəliyin icrasını təmin edəcəkləri göstərilməlidir, çünki məhkəməyə verilən iddiaların əksəriyyəti məhz tərəflərin imkanı olmadığı üçün aliment öhdəliyini icra etməmələri və bunu tənzimləyən konkret mexanizmin olmaması ilə bağlıdır. Qanunvericiliyə bu cür müddəanın gətirilməsi ilə həm problemlər aradan qalxmış olar, həm də tərəflərin öhdəliyin icra olunması ilə bağlı məsuliyyətləri artar.

Ailə Məcəlləsinin 98.2-ci maddəsində alimentin ödənilməsinin bəzi üsulları (aliment ödəməli şəxsin qazancından və ya başqa gəlirlərindən müvafiq hissə tutmaq, sabit pul məbləğində müntəzəm ödəmək, sabit pul məbləğində birdəfəlik ödəmək, əmlak təqdim etmək və qarşılıqlı razılıq əsasında müəyyən edilmiş digər üsullar) göstərilmişdir. Aliment aliment alana şəxsən təqdim edilməklə, vasitəçilərlə çatdırılmaqla, rabitə orqanları vasitəsilə, hesaba

köçürülmə yolu ilə, əmək haqqından tutulmaqla və s. yollarla həyata keçirilir. Yuxarıda göstərilən bütün bu şərtlər aliment ödənilməsi barədə sazişin əsas şərtləri olub sazişdə mütləq göstərilməlidir.

Sonda Azərbaycan Respublikasının Ailə Məcəlləsində təsbit olunmuş alimentin ödənilməsi barədə sazişin forması barədə müddəalarını əsas götürərək həmin sazişə dair nümunəvi formanı oxuculara təqdim edirik.

**İstifadə olunmuş qanunvericilik aktlarının və ədəbiyyatın siyahısı**

1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, Qanun, 2016.
2. Dəmirçiyeva M.D. Ailə hüququ. Bakı, Qanun, 2008.

**Aliment ödənilməsi barədə saziş (nümunə)**

“__” _____ 20__-ci il _______ şəhəri

**Bir tərəfdən gələcəkdə “Aliment ödəyən şəxs” adlanan şəxs ______________________________________:**

*aliment ödəyən şəxsin adı,soyadı,ata adı*

- __ ____ ____-ci ildə, _____ doğulmuş;
  *yer*
- _________________________ vətəndaşı;
  *vətəndaşı olduğu ölkənin adı*
- ______ cinsi;
- “___” ____ __-ci ildə verilmiş şəxsiyyət vəsiqəsinin seriya nömrəsi – ___№____;
- ___________________ yaşayan.
  *hazırda yaşadığı ünvan*

**Digər tərəfdən gələcəkdə “Aliment alan şəxs” adlanan şəxs ____________________________________________:**

*aliment alan şəxsin adı,soyadı,ata adı*

- __ ____ _____-ci ildə, _______ anadan olan;
  *yer*
- ___________________________ vətəndaşı;
  *vətəndaşı olduğu ölkənin adı*
- ______ cinsi;

- "____" ________-ci ildə verilmiş şəxsiyyət vəsiqəsinin seriya nömrəsi ___ №____;
- ____________________ yaşayan.
  *hazırda yaşadığı ünvan*

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 75.3-cü maddəsinə əsasən könüllü olaraq aşağıdakı şərtlər daxilində bu sazişi imzalayırlar:

### 1. Sazişin predmeti

**1.1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 75-ci maddəsinin şərtinə əsasən, yetkinlik yaşına çatmayan uşağın (uşaqların) – "__" ____ __-ci ildə, ____ doğulan _________________ saxlanması üçün Aliment ödəyən şəxs Aliment alan şəxsə aliment məbləği ödəməlidir.

### 2. Aliment ödənilmə qaydası, müddəti və məbləği

**2.1.** Aliment ödəyən şəxs Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 76-cı maddəsində nəzərdə tutulan qaydada *hər ay gəlirinin ______ hissəsi qədər və ya sabit pul məbləği şəklində*, lakin burada göstərilən məbləğlərdən az olmayaraq hər ay ___________ - _________ ödəməlidir.

**2.2.** Bu saziş üzrə Aliment ödəyən şəxs tərəfindən aliment ödənilməsi aşağıdakı qaydada aparılacaqdır:

**2.2.1.** Aliment ödənilməsi barədə saziş notariat qaydada təsdiq edildiyi andan __ (__) gün ərzində həyata keçirilməlidir.

**2.3.** Aliment ödəyən şəxsin aliment öhdəliklərini yerinə yetirməsini təsdiq edən sənədlər, bank və ya mühasibat sənədləri və ya Aliment alan şəxsin alimenti qəbul etməsini təsdiq edən sənədlər olmalıdır.

**2.4.** Aliment ödəyən şəxs imkanı olmadığına görə aliment məbləğini ödəyə bilmədikdə, ____________________________________

### 3. Tərəflərin hüquq və vəzifələri

**3.1.** Tərəflər bu saziş üzrə üzərlərinə götürdükləri öhdəlikləri lazımi şəkildə və vaxtında yerinə yetirməlidir. Eləcə də öz yaşayış yerlərini dəyişmək və digər bu cür məsələlərlə bağlı vaxtında bir-birlərini xəbərdar etməlidirlər. Bu öhdəlikləri icra etməməyə görə tərəflər məsuliyyət daşıyır.

**3.2.** Aliment ödəyən şəxs Aliment alan şəxsə gəlirləri haqqında müntəzəm şəkildə məlumat verməlidir.

### 4. Sazişin müddəti və digər əlavə şərtləri

**4.1.** Bu saziş notariat qaydada təsdiq edildiyi andan bağlanmış sayılır.

**4.2.** Tərəflərin qarşılıqlı razılıq əsasında qanunla müəyyən edilmiş qaydada (Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 95-ci maddəsi) istənilən vaxt sazişi dəyişdirmək və ya pozmaq hüququ vardır.

**4.3.** Bu sazişin şərtlərinin birtərəfli qaydada dəyişdirilməsinə və ya icrasından birtərəfli imtina edilməsinə yol verilmir.

**4.4.** Tərəflərdən hər hansı birinin maddi və ailə vəziyyətinin xeyli dəyişməsi ilə əlaqədar olaraq bu sazişin şərtləri onların mənafelərinə zidd olarsa, maraqlı tərəfin məhkəməyə iddia ilə müraciət etmək hüququ vardır.

**4.5.** Sazişin bağlanması və notariat qaydada təsdiqlənməsi üzrə xərclər tərəflər arasında bərabər şəkildə bölüşdürülür.

**4.6.** Tərəflər Azərbaycan Respublikasının Ailə Məcəlləsinin XVI fəslində (alimentin ödənilməsi barədə saziş) nəzərdə tutulan müddəalara riayət etməlidirlər.

**4.7.** Bu saziş 3 (üç) nüsxədə tərtib olunur. 1 (bir) nüsxə notariat orqanında, 1 (bir) nüsxə Aliment ödəyən şəxsdə, 1 (bir) nüsxə isə Aliment alan şəxsdə saxlanılır.

İmza:

Aliment ödəyən şəxs: _____________

Aliment alan şəxs: _______________

__ _______ __-ci il



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2017-ci ilin yanvar-aprel aylarında keçirilən tədbirlərin xülasəsi

Yanvar ayının 12-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmiş, iclasda 2016-cı ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov 2016-cı ildə muxtar respublika məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, əvvəlki illərdə olduğu kimi 2016-cı ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra zəruri işlər görülmüşdür.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2016-cı ildə həyata keçirdikləri işlərə dair məlumatları dinlənilmişdir.

≈≈≈

Fevral ayının 7-də Məhkəmə-Hüquq Şurasının bütün apellyasiya məhkəmələri sədrlərinin və hakim assosiasiyaları rəhbərlərinin iştirakı ilə geniş iclası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasda iştirak etmişdir.

İclasda ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilmişdir. Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov dünyada baş verən iqtisadi böhran və təlatümlərə baxmayaraq ötən il dahi öndərin dövlət inkişafı kursunun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini, qətiyyətli iqtisadi islahatlar nəticəsində qlobal böhranın

ölkəmizə təsirinin minimuma endiyini, iri həcmli sosial layihələrin uğurla icra edildiyini diqqətə çatdırmışdır.

Qeyd edilmişdir ki, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə hazırlanmış mühüm qanunvericilik layihələri Şuranın müzakirəsinə çıxarılmış, qanunvericiliyə edilmiş dəyişiklikərə əsasən məhkəmə sisteminin müstəqilliyinin etibarlı təmini və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən olunması ilə bağlı Məhkəmə-Hüquq Şurasının üzərinə əlavə vəzifələr qoyulmuş, məhkəmə hakimiyyətinin özünüidarə səlahiyyətləri genişləndirilmişdir.

İclasda məhkəmə səhvlərinin azaldılmasında hakimlərin tədrisinin əhəmiyyəti nəzərə alınaraq bütün hakim korpusunu əhatə edən silsilə təlimlər təşkil olunması, mövcud pozuntular və onların aradan qaldırılması, hakimlərin davranışı, məhkəmə idarəçiliyi, sənədlərin keyfiyyətli tərtibi ilə bağlı mövzuların tədrisinə üstünlük verilməsi, həmçinin ötən il hakimliyə namizədlərin növbəti seçiminin təşkil edilməsi, nüfuzlu beynəlxalq təsisatlar tərəfindən örnək kimi göstərilən seçim qaydasına uyğun olaraq namizədliyini irəli sürən 800-dən çox hüquqşünasla şəffaf prosedurlar əsasında, çoxsaylı beynəlxalq və yerli müşahidəçilərin iştirakilə test üsulu ilə, habelə yazılı və şifahi imtahanların keçirilməsi, imtahanlarda müvəffəqiyyət qazanmış 126 nəfər yüksək hazırlıqlı hüquqşünasın hakim vəzifələrinə hazırlanmaları üçün 1 illik tədris kursuna cəlb edilməsi diqqətə çatdırılmışdır.

Qeyd edilmişdir ki, mülki dövriyyənin inkişafı, məhkəmələrə əlçatanlığın asanlaşması və insanların etimadının nəticəsi olaraq 2016-cı ildə mülki sahə üzrə məhkəmələrə müraciətlərlərin sayı 45%-dək çoxalmış və 470 mini ötmüşdür (yeni məhkəmə sisteminin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə 20 dəfədən çox). Birinci instansiya məhkəmələrində mülki xarakterli iddiaların 96,8%-i, inzibati mübahisə üzrə iddiaların isə 84.4%-i təmin edilmişdir. Mülki xarakterli işlər üzrə yekun qərarların 98,5%-nin, inzibati işlər üzrə qərarların isə təxminən 90%-nin dəyişdirilməyərək sabit qalması hüquqların məhkəmə müdafiəsinin real göstəricisi olmuşdur.

İclasda həmçinin, Şuranın yeni qanunvericilikdən irəli gələn vəzifələri müzakirə edilmiş, 2017-ci ildə səlahiyyət müddəti başa çatan 130-dan çox hakimin fəaliyyətinin prinsipial qiymətləndirilməsi ilə bağlı konkret tapşırıqlar verilmişdir. Ölkə başçısının korrupsiya ilə qəti mübarizə aparılması, məhkəmə qərarlarının ədalətliliyi, qərəzli yanaşmanın aradan qaldırılması, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması ilə bağlı tapşırıqları diqqətə çatdırılaraq, hakim adına və nüfuzuna

xələl gətirən halların qarşısının qətiyyətlə alınmasının vacibliyi vurğulanmışdır. Qeyd olunmuşdur ki, ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara, korrupsiyaya şərait yaradan və digər neqativ hallara yol verdiklərinə görə 6 hakimin fəaliyyəti qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilmiş, 12 hakim intizam məsuliyyətinə cəlb olunmuş, o cümlədən 2 nəfərin tutduğu vəzifədən azad olunması barədə qərar qəbul edilmişdir.

Şurada həmçinin, qanunvericiliyin tələblərinin pozulmasına və korrupsiyaya şərait yaradan hallara yol verilməsinə görə Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Mahir Niftəliyevin tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi qərara alınmış, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Səyyad Qafariyə töhmət verilmiş, məhkəmənin digər hakimləri Elman Rəhimov və Lətifə Məmmədovaya, Bakı Apellyasiya Məhkəməsinin hakimi İsmayıl Vəliyevə, Masallı Rayon Məhkəməsinin hakimi Anar Alməmmədova, İmişli Rayon Məhkəməsinin hakimi Ülvi Qənbərova irad tutulmuşdur.

≈≈≈

Mart ayının 4-də Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev tədbirdə iştirak etmişdir. Yığıncaqda Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin və Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının illik hesabatı dinlənilmişdir. Məruzə ilə çıxış edən birliyin və ittifaqın sədri, Yasamal Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə xidmət edən islahatlar, o cümlədən məhkəmə sisteminin və infrastrukturunun müasirləşdirilməsi, yüksək beynəlxalq tələblərə cavab verən yeni məhkəmə binalarının və komplekslərinin tikilib istifadəyə verilməsi, elektron məhkəmənin və qabaqcıl İKT-lərin tətbiqi, hakimlərin şəffaf seçimi və digər nailiyyətlərdən danışmışdır.

Tədbirdə dövlət başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli sərəncamın xüsusi əhəmiyyəti vurğulanmış, proqram xarakterli bu mühüm sənəddən irəli gələn vəzifələr diqqətə çatdırılmışdır.

Tədbirdə Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimləri İctimai Birliyinin sədri, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi hesabat məruzəsi ilə çıxış edərək, Assosiasiyanın ötən dövr ərzindəki fəaliyyəti barədə məlumat vermişdir.

Yığıncaqda həmçinin, təşkilati məsələlərə baxılaraq hər iki birliyə yeni üzvlər qəbul edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASI
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2017

Yığılmağa verilmiş: 14.04.2017.
Çapa imzalanmış: 20.04.2017.
Formatı 70x100 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 5,5 ç.v.
Sifariş № 323. Tiraj 110 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.